YENİ MÜSAVAT
N 97 (6418) 5 may 2016





# Prezident Nizami rayonunda görülən işlərlə tanış oldu

**Prezident İlham Əliyev Bakının Nizami rayonundakı Mikayıl Əliyev küçəsində aparılan yenidənqurma işləri ilə tanış olub. "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verib ki, paytaxtın Heydər Əliyev prospekti ilə Babək prospektini birləşdirən, Heydər Əliyev adına Bakı neft emalı zavodunun, Milli Gimnastika Arenasının, habelə əhalinin istifadəsində olan kütləvi tədbirlərin keçirildiyi çoxsaylı obyektlərin yerləşdiyi və nəqliyyatın intensiv hərəkət etdiyi Mikayıl Əliyev küçəsi uzun illərdən sonra əsaslı təmir edilib.**

Uzunluğu 2800 metr, hərəkət hissəsi 4-6 zolaqlı olan yolun yenidən qurulması zamanı köhnə asfalt örtüyü təmizlənib, zəruri yerlərdə yol yatağı bərkidilib və küçəyə yeni asfalt-beton örtüyü döşənib. Yenidənqurma işləri çərçivəsində küçə boyu hər iki istiqamətdə yeni piyada səkiləri yaradılıb, işıqlandırma sistemi qurulub.

Prezidentin diqqətinə çatdırılıb ki, paytaxtın Nizami rayonunun Çobanzadə küçəsi də əsaslı təmir olunub.

Daha sonra prezident 8-ci kilometr qəsəbəsində çoxmərtəbəli avtomobil dayanacağının rəmzi açılışını bildirən lenti kəsib. Avtodayanacaqla tanış olan dövlət başçısı İlham Əliyevə məlumat verilib ki, ümumi sahəsi 16 min 286 kvadratmetr olan avtodayanacağın yuxarı mərtəbəsi restoran kimi fəaliyyət göstərəcək. Bildirilib ki, dayanacaqda 391 avtomobili eyni vaxtda parklamaq mümkündür. Avtodayanacaq naviqasiya, avtomat yanğınsöndürmə sistemləri ilə təchiz olunub.

Paytaxtın 8-ci kilometr qəsəbəsinin ən qaynar və hərəkətin intensiv olduğu ərazisində tikilən avtodayanacaq yol kənarlarının boşalmasına imkan yaradacaq. Bununla da ərazidə avtomobil tıxacları aradan qaldırılacaq.

# Söhrab Tahir Fəxri Xiyabanda dəfn olunacaq



**Həkim, filoloq, ictimai xadim, o taylı-bu taylı Azərbaycanın ən görkəmli şairlərindən biri olan Söhrab Tahir mayın 4-də uzun sürən xəstəlikdən sonra səhər saatlarında dünyasını dəyişib.**

Xatırladaq ki, Söhrab Tahir 1926-cı ilin martında (rəsmi sənədlərdə avqustun 6-sı yazılıb) Cənubi Azərbaycanda anadan olub.

Söhrab Tahirlə vida mərasiminin mayın 5-də saat 12-də «Təzəpir» məscidində keçirilməsi nəzərdə tutulub. Azərbaycan Yazıçılar Birliyindən verilən məlumata görə, mərhum şair saat 14-də II Fəxri Xiyabanda torpağa tapşırılacaq.

# "ASAN Kommunal" mərkəzləri yaradılır

**Azərbaycan prezidenti İlham Əliyev "ASAN Kommunal" mərkəzlərinin yaradılması ilə bağlı tədbirlər haqqında fərman imzalayıb. APA-nın məlumatına görə, Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə fiziki və hüquqi şəxslərə kommunal və digər müştəri xidmətlərinin vahid məkanda "ASAN xidmət" mərkəzlərinin fəaliyyət prinsipləri və standartları əsasında göstərilməsini təmin edən "ASAN Kommunal" mərkəzlərinin yaratmaq və vahid şəkildə idarə edilməsini təşkil etmək tapşırılıb.**

# Bakı əhalisinin 97 faizi hərbi əməliyyatları dəstəkləyir

**Mayın 4-də "Marriott" hotelində "ACT Global" beynəlxalq şirkəti 1-3 aprel tarixlərində cəbhə xəttində baş verənlərlə bağlı "Dağlıq Qarabağ münaqişəsində ictimai rəy sorğusu" adlı tədbir keçirib.**



Tədbirdə ictimaiyyət və KİV nümayəndələri, "ACT Global" şirkətinin rəsmiləri iştirak edir.

"ACT Global" şirkəti Azərbaycan nümayəndəliyi ilə birgə Bakı şəhəri üzrə sorğu keçirib.

Sorğu 400 sakin arasında keçirilib. İştirakçıların 52%-ni qadınlar, 48%-ni isə kişilər təşkil edib.

**Tədbiri giriş sözü ilə açan "ACT Global" şirkətinin baş direktoru Tinati Ruxadze aparılan tədqiqatlarda maraqlı statistikalar əldə olunduğunu bildirdi:** "Biz tədqiqat zamanı maraqlı statistikalar əldə etdik. Respondentlərin 62%-i sonuncu hərbi əməliyyatlarda üçüncü tərəf kimi digər ölkələrin də əli olduğunu düşünür. Bu hadisələrdə 92% bu tərəfin Rusiya olduğu qənaətindədir. Paytaxt sakinləri Fransa, ABŞ, Türkiyə və İranın da sonuncu hərbi münaqişəni stimullaşdırdığını düşünür. 57% Rusiya, 24% isə konflikti Ermənistanın dərinləşdirdiyi qənaətindədir.

Respondentlərin 85%-i Azərbaycanın hərbi əməliyyatları davam etdirəcəyi təqdirdə Ermənistan ordusunun işğal etdiyi Azərbaycan ərazilərindən çıxarılacağına əmindir".

❑ Məğrur MƏRD

## "Qarabağ münaqişəsi ilə bağlı yaxın vaxtlarda görüş planlaşdırılır"

**"Yaxın vaxtlarda həmsədrlərin iştirakı ilə Dağlıq Qarabağ münaqişəsi üzrə görüş planlaşdırılır".**

APA-nın məlumatına görə, bunu "RİA Novosti"yə müsahibəsində Rusiya xarici işlər naziri Sergey Lavrov bəyan edib: "Görüş planlaşdırırıq, çünki məsələ yüksək diqqət tələb edir. Yəgin ki, tezliklə təmaslar razılaşdıracağıq. Şübhəsiz ki, həmsədrlərin və münaqişə tərəflərinin iştirakı ilə. Axı bu iş belə kollektiv format tələb edir".

**Lavrov həmçinin deyib:** "Ermənistan parlamentinin Dağlıq Qarabağın müstəqilliyini tanıması ilə bağlı müzakirə aparacağı ilə bağlı xəbərlərdən təlaş keçirməyə səbəb yoxdur, çünki Ermənistan bəyan edir ki, regionun statusu birtərəfli qaydada müəyyən edilməyəcək".

"Moskva Dağlıq Qarabağda istənilən atəşkəs pozuntusunun qarşısını almağı və bunun üçün işlək mexanizmlərin hazırlanmasını başlıca məsələ hesab edir" - deyə, o bildirib.

## Azərbaycan beynəlxalq təşəbbüsdə "qeyri-aktiv" edildi

**Açıq Hökumət Tərəfdaşlığının İdarəetmə Komitəsi çərşənbə günü Azərbaycanın bu layihədə iştirakını "qeyri-aktiv" edib.**

Komitə "təəssüflə" bildirib ki, qeyri-hökumət təşkilatlarının fəaliyyəti üçün Azərbaycanda "həll olunmamış maneələr" üzündən belə bir qərar verməli olub.

AHT öz tarixində ilk dəfədir ki, belə bir qərar verməli olduğunu deyib.

Hökumət və vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət komitə nazirlər səviyyəsində Keyptaunda keçirilən görüşdə bu qərarı verib.

"Azərbaycan hökumətinin vətəndaş cəmiyyəti təşkilatları tərəfindən qaldırılmış narahatlıqlara cavab vermək üçün maksimum bir il vaxtı olacaq", - komitənin bəyanatında deyilir.

Qeyri-aktiv statusla Azərbaycan "AHT seçkilərində səs verə bilməyəcək və AHT tədbirlərində yalnız müşahidəçi kimi, öyrənmə məqsədilə iştirak edə biləcək".

AHT hökumətlərin şəffaflıq, vətəndaşlara səlahiyyətlər verilməsi, korrupsiya ilə mübarizə, idarəetmənin gücləndirilməsi üçün yeni texnologiyaların tətbiqini tələb edən çoxtərəfli təşəbbüsdür.

AHT 2011-ci ilin sentyabrında yaradılıb və onun təsisçiləri arasında ABŞ və Britaniya da var.



## Azərbaycan ordusu üçün sursat və mərmilərin əlavə ehtiyatı yaradılır

**Ermənistan silahlı qüvvələrinə qarşı əks-həmlə əməliyyatları zamanı istifadə edilmiş sursat və mərmilərin yerlərinin doldurulması, eləcə də əlavə ehtiyatların yaradılması məqsədilə müdafiə nazirlərinin tapşırığına əsasən planlı tədbirlər yerinə yetirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, ölkənin hərbi sənaye komplekslərində, Rusiya və digər ölkələrin hərbi müəssisələrində istehsal edilən müxtəlif silah, texnika, digər döyüş elementləri üçün nəzərdə tutulmuş hər növ çaplı sursat və mərmilər qoşunların sərəncamına verilir.

Müdafiənin ön xəttində, eləcə də cəbhəboyu zonada yerləşən hərbi hissələrin təyin olunmuş döyüş dəstələri ilə təminatı normalara uyğun eşelonlaşdırılır.

Eyni zamanda uzunmüddətli döyüş əməliyyatları aparmaq üçün əlavə toxunulmaz ehtiyatların da yaradılması istiqamətində tədbirlər davam etdirilir.

## Fuad Qəhrəmanlının həbs müddəti uzadıldı

### Digər AXCP funksionerinin isə cəzası azaldıldı

**Nəsimi Rayon Məhkəməsi həbsdə olan AXCP sədrinin müavini Fuad Qəhrəmanlının barəsində seçilmiş həbs-qətimkan tədbirinin müddətini daha iki ay uzadıb. Bu barədə «Trend»ə F. Qəhrəmanlının vəkili Fəxrəddin Mehdiyev məlumat verib.**

F.Qəhrəmanlı ötən il dekabrın 8-də Nardaran hadisələri ilə bağlı çağırışlar etməkdə təqsirləndirilərək həbs edilib. Məhkəmə onun barəsində 3 ay müddətinə həbs-qətimkan tədbiri seçib. O, Cinayət Məcəlləsinin 281 (dövlət əleyhinə açıq çağırışlar) və 283-cü ( milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması) maddələri ilə ittiham olunur.

Ali Məhkəmədə isə AXCP Rəyasət Heyəti üzvü Asif Yusiflinin kasasiya şikayətinə baxılıb.

"Report"un məlumatına görə, məhkəmə şikayəti qismən təmin edib və onun cəzasını 1 il 6 ay azaldaraq 6 ilə endirib.

Qeyd edək ki, Asif Yusifli 2014-cü ilin noyabrında həbs edilib. Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, o, Fəridə Zülfüqarovanın 7700 manatını dələduzluq yolu ilə ələ keçirib. Faktı üzrə Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində başlanmış cinayət işi üzrə istintaqdan yayınan Bakı şəhər sakini A.Yusifov saxlanılıb.

O, Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda ziyan vurmaqla törədilən dələduzluq) maddəsi ilə ittiham olunub, 2015-ci il iyulunda 7 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

## Azərbaycan öz ərazi bütövlüyünü güzəştə getməyəcək"

**"Azərbaycan münaqişənin danışıqlar yolu ilə həllində maraqlıdır". Virtualaz.org bildirir ki, bunu Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Çexiyada Vişeqrad qrupu (V4) və Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşündəki çıxışında deyib.**

Nazir bildirib: "Azərbaycan münaqişənin danışıqlar yolu ilə həllində maraqlıdır. Onun sülh və sabitlik üçün yol xəritəsi aydındır və beynəlxalq hüquqa əsaslanır. Azərbaycan V4 və digər beş Şərq Tərəfdaşlığı ölkəsi kimi öz ərazi bütövlüyünü güzəştə getməyəcək. BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrində tələb edildiyi kimi, Ermənistan silahlı qüvvələri qeyd-şərtsiz işğal olunmuş bütün Azərbaycan ərazilərindən çıxarılmalı və məcburi köçkünlərin öz doğma torpaqlarına təhlükəsiz şəkildə qayıtması təmin edilməlidir".

## Antiböhran Koalisiyası "İşğala son!" şüarı ilə mitinq keçirəcək

**Mayın 4-də siyasi partiya və ictimai təşkilatların yaratdığı Antiböhran Koalisiyasının toplantısı keçirilib. Bu barədə "Yeni Müsavat"a verilən xəbərdə deyilir ki, ADP qərargahında, Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayevin sədrliyi ilə keçirilən iclasda koalisiyanın 28 apreldə BMM-də "Rusiya işğalı və Qarabağ problemi" mövzusunda təşkil etdiyi dəyirmi masanın nəticələri müsbət qiymətləndirilib.**

İctimai-siyasi vəziyyət, Dağlıq Qarabağ münaqişəsi ətrafında məsələlər müzakirə obyekti olub. Koalisiya Azərbaycan hakimiyyətinə mövcud hərbi-siyasi və diplomatik vəziyyət haqqında, situasiyaya uyğun formada, siyasi müxalifəti məlumatlandırması üçün çağırış edib.

Daha sonra "İşğala son!" şüarı ilə ümummilli mitinqin keçirilməsi üçün siyasi partiyalara, ictimai təşkilatlara, ziyalılara və vətəndaşlara müraciət edilməsi haqqında qərar qəbul edilib.

❑ E.SEYİDAĞA

## Bakıda dəhşətli hadisə - tanışı gənc qızı 10 gün bağlı saxlayıb zorladı

**Bakıda dəhşətli zorlama hadisəsi baş verib. 21 yaşlı gənc qız başına gələnlərlə bağlı 102 xidmətinə məlumat verib.**

"Qafqazinfo"nun xəbərinə görə, Bakı şəhər sakini, 1995-ci il təvəllüdlü Dilarə Ağayeva (şərti) bildirib ki, tanışı olan Eşqin adlı şəxs onu aldadaraq kirayə yaşadığı evə aparıb. Orada onun telefonunu əlindən alıb, özünü isə 10 gün həmin evdə bağlı saxlayıb. Eşqin adlı şəxs bu müddət ərzində qızı saxladığı Qaraçuxur qəsəbəsi, Y.Əliyev küçəsində yerləşən evdə gün ərzində bir neçə dəfə qeyri-təbii yolla zorlayıb.

Müraciətlə bağlı araşdırma aparılır.

YENİ MÜSAVAT
N 97 (6418) 5 may 2016

**Türkiyənin 1993-cü ildə Ermənistana etdiyi 41 min ton buğda yardımının üzərindən 23 il keçsə də, zaman-zaman bu məsələ gündəmə gəlir. Hər iki ölkənin ictimaiyyəti arasında bununla bağlı müxtəlif fikirlər var. Məsələyə münasibət heç də birmənalı deyil.**

# Ərdoğanın buğda açıqlaması aranı qatdı

## 23 il öncə Türkiyənin Ermənistanı aclıqdan qurtarmasına Azərbaycan hökumətinin razılıq verməsi məsələsində fikirlər haçalandı

Rusiyanın yardımını azaltdığı vaxt aclıq və səfalətə düçar olan düşmən ölkəyə yardım etdiyi üçün o zaman Türkiyə rəhbəri olan Süleyman Dəmirəl hökuməti hələ də ciddi tənqidlərə məruz qalır. Hazırkı Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın bir neçə gün öncə üzə çıxan videoaçıqlamasında 23 il öncə Türkiyənin Ermənistana etdiyi yardıma toxunması bu məsələni bir daha aktuallaşdırıb. Ərdoğan 23 il öncə müxalifətdə olarkən bu barədə fikirlər səsləndirərək, Dəmirəl hökumətini ermənilərə yardım etdiyi üçün sərt şəkildə tənqid edib. Videoda Ərdoğan 41 min ton deyil, 100 min ton buğda göndərildiyini qeyd edib. Türkiyədəki 1993-cü il seçkiləri ərəfəsinə təsadüf edən çıxışda Ərdoğan Türkiyəni parçalamaq üçün tarix boyu plan quran ermənilərə yardım edən Dəmirəl hökumətinin xalqın səsinə layiq olmadığını bildirib...

Ötən müddət ərzində Azərbaycanda da Türkiyənin ermənilərə etdiyi buğda yardımı ilə bağlı müxtəlif fikirlər olub. Aclıqdan əziyyət çəkən, eyni zamanda Azərbaycanla müharibə aparan dövlətə qardaş dediyimiz Türkiyənin nə üçün yardım etdiyi sualına hələ də konkret cavab tapılmayıb. Türkiyənin həmin dönəmdə Ermənistanla münasibətləri elə də yaxın deyildi. Əksinə, hər iki ölkə arasında indiyə qədər davam edən kəskin münasibətlər 1993-cü ildə də cərəyan edirdi.

Bu məsələ ilə bağlı iddialar da çoxdur. Əsas iddialardan biri o zaman Azərbaycan prezidenti olan Əbülfəz Elçibəyin yardım barədə razılığının olması fikirləridir. Türkiyənin Azərbaycan tərəfin razılığını aldıqdan sonra yardım etdiyi deyilir. Bunu tənqid edənlər bildirir ki, müharibənin əsas qanunlarından biri rəqib tərəfi müxtəlif variantlarla məğlub etmək olduğu halda, ermənilərə buğda göndərilməsinə Azərbaycan razılıq verib...

**Elçibəy hökumətində baş nazir postunu tutan AXP lideri Pənah Hüseyn yardımla bağlı iddialara belə münasibət sərgilədi:** "O zaman beynəlxalq təşkilatlar, aparıcı dövlətlər Ermənistanda dinc əhalinin ərzaq çatışmazlığı ilə üzləşməsi məsələsini Türkiyə vasitəsilə qaldırmışdılar. Türkiyə üzərindən onlara yardım məsələsini gündəmə gətirmişdilər. Konkret miqdarı xatırlamıram, amma söhbət ermənilərə buğda yardımından gedirdi. Prinsip etibarı ilə beynəlxalq humanitar yardımın qarşısının alınması ilə bağlı Azərbaycan tərəfdən heç bir addım atılmayıb və bunun əleyhinə çıxılmayıb. Hesab edirəm ki, doğru olaraq əleyhinə çıxılmayıb. Çünki bu, Azərbaycan dövlətçiliyinə və xalqın adət-ənənələrinə uyğun olmazdı".



**Pənah Hüseyn:** "Azərbaycan tərəfdən bunun əleyhinə çıxılmayıb"



**Fazil Mustafa:** "Elçibəylə bu addım razılaşdırılmayıb"

**1992-1993-cü illərdə Prezident Aparatı dövlət-hüquq şöbəsinin müdiri vəzifəsində çalışan millət vəkili Fazil Mustafa Türkiyənin yardımının Elçibəylə razılaşdırılmadığını bildirdi:** "Həmin dövrdə yeni dövlət qurulmuşdu. Buna görə müəyyən köməyə ehtiyacımız var idi. Həmin ərəfədə Süleyman Dəmirəlin yürütdüyü siyasət Azərbaycan hökumətinin maraqları ilə uzlaşmırdı. Turqut Özal rəhmətə getdikdən sonra hakimiyyətə gələn Dəmirəlin Elçibəyə qarşı münasibəti müsbət olmadığına görə onun hakimiyyətdə qalmasını arzulamırdı. Buna görə də mənfi imic yaradan addımlar atırdı. Onlardan biri də Ermənistana dəstək verib, buğda yardımı etməkdir. Sonralar bu addımını Dəmirəl Azərbaycan hökumətinin adına bağlamağa çalışdı. Əslinə qalsa, bu belə deyildi. Azərbaycan hökumətinin hər hansı bir şəkildə bu proseslərə aidiyyəti yox idi. Amma çox təəssüf ki, bunu o vaxtlar adımıza bağlamaq cəhdləri oldu. Bu, müsbət bir hal deyildi. Bütövlükdə bu məsələdə hər hansı bir şəkildə Azərbaycan dövlətinin qınanması düzgün deyil. Bu məsələyə heç bir qarışacağımız olmayıb. Elçibəylə bu addım razılaşdırılmayıb. Deyilənlər həqiqətdən uzaqdır. Sadəcə, Dəmirəl atdığı addımın səhv olması ilə bağlı deyiləcək tənqidləri önləmək üçün belə fikirlər ortaya atmışdı".

❑ **Cavanşir ABBASLI**

# "Suriyada ABŞ-Rusiya anlaşması Qarabağ prosesinə təsir göstərə bilər"

## Natiq Miri: "Çünki Rusiyanın geosiyasi manevr imkanları bir qədər azalacaq"

**ABŞ və Rusiyadan olan hərbçilər Suriyada barışığın əldə edilməsini müzakirə edirlər. Bu barədə ABŞ dövlət katibi Con Kerri məlumat verib. "Bizim komandalarımız Suriyada sülhün əldə edilməsi üzərində işləyirlər. Hazırda detallar üzərində müzakirələr aparılır ki, atəşkəsi bərpa edək"-deyə Kerri qeyd edib.**

Kerri yaxın günlərdə yeni atəşkəs sazişinin imzalanacağını da bəyan edib. Dövlət katibi tərəfləri təmkinli olmağa çağırıb.

Siyasi analitiklərin fikrincə, Suriya məsələsində ABŞ-la Rusiya arasında razılaşma və sülhün əldə olunması baş tutarsa, bunun bölgədəki proseslərə təsirsiz ötüşməyəcəyi bəllidir.

**Politoloq Natiq Miri** hesab edir ki, ABŞ-la Rusiya arasında Suriyada savaşa son qoyulması üçün razılaşma varsa, deməli, ortada müəyyən siyasi bazarlıqlar da mövcuddur. Bazarlıq predmetinin içərisində Rusiyanın Yaxın Şərqdə, xüsusilə Suriyada geosiyasi maraqlarının təminatı, hər halda, əsas yerlərdən birini tutur: "Rusiya Suriyaya qayıdışından sonra ikinci dəfə göstərdi ki, onun Suriyada və Yaxın Şərqdə geosiyasi maraqları uzunmüddətlidir. Alternativ güc mərkəzi olan Qərb bu maraqları tanımalıdır. Görünür ki, ABŞ-la Rusiya arasında bu yöndə müəyyən anlaşma var. Barak Obama prezidentlik müddəti başa çatanadək İŞİD və Suriya probleminí həll etmək istəyir. Ona görə də ola bilsin ki, ABŞ-Rusiya anlaşması baş verə bilər. Ayrıca onu da nəzərə almaq lazımdır ki, bu savaşın uzadılması gələcəkdə həm Rusiyanın özü, həm də region üçün böyük təhlükələr vəd edir. Türkiyənin Suriyaya müdaxiləsi Türkiyə-Rusiya qarşıdurmasına gətirib çıxaracaq. Bu da məcburi qlobal bir müharibənin meydana gəlməsi demək olacaq. Ona görə də indi Suriya məsələsində anlaşmadan başqa ikinci alternativ yoxdur. Təbii ki, bu anlaşma çərçivəsində həmin ölkələrin güc mərkəzlərinin geosiyasi maraqları da gözardı edilə bilməz".



Natiq Miri

**Politoloq onu da dedi ki, Suriyada müharibə Dağlıq Qarabağ məsələsində proseslərə də ciddi şəkildə təsir göstərir. Suriya məsələsində böyük güclər arasında razılaşmaların əldə olunması Dağlıq Qarabağla bağlı prosesdə də özünü göstərə bilər:** "Rusiyanın episentrində olduğu bütün münaqişə ocaqları Rusiya üçün bir-biri ilə bilavasitə əlaqəlidir. Suriya gərginliyinin Qarabağa da təsirini qətiyyən istisna etmək olmaz. Suriyada döyüşlərin bitməsi, sülhün regiona gəlməsi Rusiyanın imkanlarını bir az da məhdudlaşdıracaq. Suriyada gedən proses sülhlə bitəcəksə, bunun müsbət mənada Qarabağ prosesinə təsiri olacaq. Çünki Rusiyanın geosiyasi manevr imkanları bir qədər azalacaq. Ona görə də Suriyada sülhün Dağlıq Qarabağ prosesində gələcəkdə sülhə stimul verəcəyini düşünürəm".

❑ **E.SEYİDAĞA**

# "Rusiya istismar müddəti bitmiş hərbi texnikanı kredit yolu ilə Ermənistana verir"

## Vaqif Dərgahlı: "Biz aprel əməliyyatlarında bunun canlı şahidi olduq"

**Azərbaycan Müdafiə Nazirliyi Ermənistanın kredit razılaşması əsasında Rusiyadan silah alması barədə məlumatlara münasibət bildirib.**



Vaqif Dərgahlı

Nazirliyin mətbuat xidmətinin rəhbəri polkovnik Vaqif Dərgahlı APA-nın sorğusuna cavab olaraq bildirib ki, müharibə edən ölkə üçün 200 milyon ABŞ dolları cüzi məbləğdir, bu pulla ordunu silahla təmin etmək mümkün deyil: "Nəzərə alsaq ki, hazırda Ermənistanda korrupsiya və rüşvətxorluq tüğyan edir və ölkənin rəhbərliyində təmsil olunan şəxslərin hamısı kriminal ünsürlərdir, bu pulların böyük hissəsinin elə həmin rejim tərəfindən mənimsəniləcəyi şübhəsizdir".

**V.Dərgahlı qeyd edib ki, son illər Ermənistanın Rusiyadan aldığı silah və hərbi texnikanın istismar müddəti çoxdan başa çatıb:** "Uzun illər öncə istehsal edilən və istifadə olunmayan, istismar müddəti bitmiş silahlar və hərbi texnika kredit yolu ilə Ermənistana verilir. Biz aprel əməliyyatlarında bunun canlı şahidi olduq. Son əməliyyatlarda ermənilərin atdığı mərmilərin əksəriyyəti köhnə olduğu üçün partlamadı, torpağa batıb qaldı. Həmin mərmilər hərbçilərimiz tərəfindən yığılaraq məhv edildi. Ermənistan rəsmilərinin bundan əlavə başqa mənbələrdən də silah alması barədə səsləndirdikləri fikirlər də "blefdir". Apreldə Ermənistan Müdafiə Nazirliyi bildirmişdi ki, diaspor təşkilatları yardım üçün 5-6 milyon ABŞ dolları yığıb. Bu məbləğ isə çatsa-çatsa, apreldə məhv edilən erməni hərbçilərinin dəfn mərasimlərinə və onların ailələrini susdurmaq məqsədilə verilən yardımlara bəs edər. O ki qaldı 1980-ci illərdə istehsal olunan texnikanın "super" vəziyyətdə olması barədə Arsrun Ovannisyanın açıqlamalarına, bu da ermənilərin növbəti uydurmasıdır. Çünki 30 il bundan əvvəl istehsal olunan silahları alıb onları tərifləyərək müasir silahlarla müqayisə etmək də bir nağıldır".

V.Dərgahlı xüsusi olaraq bildirib ki, ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən silah-sursatın, döyüş texnikasının yenilənməsi, əlavə döyüş ehtiyatlarının yaradılması, müasir silah və texnikanın, digər hərbi elementlərin alınması məqsədilə Azərbaycan Silahlı Qüvvələri üçün külli miqdarda maliyyə vəsaiti ayrılıb.

Qeyd edək ki, Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Arsrun Ovannisyan mövcud kredit razılaşması əsasında Rusiya Federasiyasından Ermənistana silah göndərilməsi prosesinin başlandığını açıqlayıb.

YENİ MÜSAVAT
N 97 (6418) 5 may 2016

# Leş ət mafiyasına “kolbasa kralları” himayədarlıq edir

## Eyyub Hüseynov: “Şeyx murdar ət satanları zərərsizləşdirə bilər - əgər...”

**Azərbaycanda murdar, ölmüş, qida üçün yararsız heyvan ətlərini satışa çıxaran, “Leşyığanlar mafiyası” kimi tanınan qruplaşmanın kökünü kəsmək mümkünsüz görünür. Bu gün ölkə bazarlarında, super və hiper marketlərdə piştaxtalara kolbasa, sosis şəklində belə ətlərin ayaq açmasına dəlalət edən faktlar yetərincədir.**




Kənd Təsərrüfatı Nazirliyinin (KTN) açıqladığı rəsmi rəqəmlər də bunu təsdiq edir. Ötən 4 ay ərzində dövriyyədən 70 tona yaxın murdar, mənşəyi bəlli olmayan ət çıxarılıb. Dövriyyədə tonlarla xəstə heyvanın əti var. Restoranlarda lülə kabab, basdırma şəklində süfrəyə çıxan belə ətlərin satılmasının qarşısını almaq müşkül məsələyə çevrilib.

Əhalinin ərzaq təhlükəsizliyinin təmin olunmasında hüquq-mühafizə orqanlarının səyləri də yetərli görünmür. Mayın 3-də DİN Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə Xaçmaz rayonunda mənşəyi məlum olmayan ətin satılması barədə əməliyyat məlumatı daxil olub. Keçirilən təxirəsalınmaz tədbirlər nəticəsində rayon sakini Namiq Ağayev 1 ton mənşəyi məlum olmayan əti satmaq istəyən zaman saxlanılıb. Araşdırmalarla məlum olub ki, saxlanılan şəxs Xaçmaz və ətraf rayonlardan əldə etdiyi xəstə və ölü heyvanların ətinin Bakı şəhərində satışını təşkil etmək istəyib. Ekspert rəyi ilə müəyyən edilib ki, aşkarlanan ət istifadəyə tam yararsızdır və insan sağlamlığına ciddi təhlükə yarada bilər. Qeyd edilən faktlarla bağlı Baş İdarənin İstintaq Şöbəsində cinayət işi başlanıb. Araşdırmalar davam etdirilir.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyir ki, Mil-Muğan zonasından sonra Xaçmaz rayonu murdar ət satılan rayonlar arasında ilk yerlərdədir:** “Xaçmaz, Quba turistlərin, təsadüfi yol keçənlərin dayandığı bir zonadır. Nabran bölgəsində çoxsaylı restoranlar var. Düşünürəm ki, buna görə həmin rayonda tez-tez murdar ət satanların saxlanılması haqda məlumatlar eşidirik.

Saatlı, Sabirabadda belə hallar çoxdur. Yaxşı haldır ki, Daxili İşlər Nazirliyi bu sahədə fəal iş aparır. Digər dövlət qurumları isə böyük passivlik nümayiş etdirirlər".

### “Çünki maraqlar konflikti var”

**E.Hüseynov deyir ki, ölkədə istehlakçıların hüquqlarını qoruyan müstəqil dövlət qurumu olmayınca, belə hallar davam edəcək:** “Qəzetinizə müsahibəsində İqtisadiyyat Nazirliyinin rəsmisi deyir ki, 1 ay ərzində 400 adda məhsulu yoxlayıblar və nöqsan aşkar etməyiblər. Əlbəttə ki, İqtisadiyyat Nazirliyinin yoxlayıcıları piştaxtaya çıxan mallarda nöqsan aşkar edə bilməzlər. Çünki İqtisadiyyat Nazirliyinin strateji məqsədi iqtisadiyyatı dirçəltmək, biznes qurumlarını nə yolla olur-olsun himayə etməkdir. Nazirliyin tərkibində olan Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti hansısa bir biznes qurumunda, qurumun istehsal etdiyi məhsulda nöqsan tapsa belə, buna adekvat tədbir görə bilməz. Son zamanlar həmin xidmətə göndərdiyimiz bütün sorğulara "gedin, məhkəməyə müraciət edin" deyirlər. O boyda dövlət qurumunda sorğularımızı cavablandıra bilmirlər. Çünki maraqlar konflikti var. Mütləq şəkildə istehlakçı hüquqlarını qoruyan müstəqil dövlət qurumu olmalıdır. Əgər bunu etmək istəmirlərsə, istehlakçı hüquqlarının qorunması Yeni Zelandiyadakı kimi qeyri-hökumət təşkilatlarının öhdəliyinə verilməlidir. Orada QHT-lərin icazəsi olmadan 1 mal belə bazara girə bilməz".

### “Bu sahədə ictimai nəzarət olmalıdır”

**E.Hüseynov deyir ki, istehlakçı hüquqlarını qoruyan müstəqil qurumun yaradılması təklifi ilə Prezident Administrasiyasına, Nazirlər Kabinetinə müraciət edib:** “Təəssüf ki, dövlət qurumları özlərinin yoxlama funksiyalarından əl çəkmək istəmirlər. Baxmayaraq ki, dünyanın hər yerində bu proses gedir. Dövlət orqanları bərk-bərk laboratoriyalardan tutublar, özlərinin yoxlama funksiyalarını əllərində saxlayıb sovetdən qalma iş prinsiplərini qorumaq üçün cidd-cəhdlə iş aparırlar. Qəzet vasitəsilə bir daha müraciət edirəm, cənab prezidentin dediyi kimi, bu sahədə ictimai nəzarət olmalıdır”.

### “Sahibkarın kolbasaya at, eşşək əti vurması yoxlayıcını sadəcə maraqlandırmır”

**E.Hüseynov dövlət qurumlarının yoxlamalarının nəticəsinin olmamasının səbəbini də açıqlayıb:** “İllər boyu yoxlama ilə məşğul olan qurumaların müəyyən etdiyi qanunsuzluqlar, qida təhlükəsizliyini təhdid edən faktlar QHT-lərin 1 ayda müəyyən etdiyi faktlarla müqayisəolunmaz dərəcədə azdır! Cənab prezident yoxlamaları niyə məhdudlaşdırdı? Çünki ortada rüşvət amili var. Sahibkarın kolbasaya at-eşşək əti vurması yoxlayıcını sadəcə maraqlandırmır. Belə yoxlamalar biznesmenlərin kabinetindən istehsal sahəsinə qədər gedib çıxmır. Rüşvət, korrupsiya amili var. Vaxtilə Ticarət Nazirliyində işləmiş şəxslər indi də dövlətin ayrı-ayrı qurumlarında yenə də sovetdən qalma yuxuları ilə ”Qostorq"un, Ticarət Nazirliyinin əmələ gəlməsi xəyalları ilə yaşayırlar. Belə şəxslərin istehlakçıların hüquqlarını qoruyacağını düşünmək sadəcə sadəlövhlükdür".

### “Sonradan isə həmin sertifikatla murdar, ölmüş heyvanın əti...”

**Birlik sədri ölkəyə xaricdən gətirilən ətlərlə bağlı bunları deyib:** “Hindistandan, Braziliyadan ölkəyə ətlər gətirilir. Ölkədə sertifikatlaşdırma işi mükəmməl deyil. Sertifikat 1 illik verilir. Bir çox ölkələrdə isə sertifikat konkret malın partiyasına verilir. Ola bilər ki, ölkəyə gətirilən ətin nümunəsi sertifikatlaşdırmaya təqdim olunsun və 1 illik sertifikat alınsın. Sonradan isə həmin sertifikatla murdar, ölmüş heyvanın əti satılsın. Ölkəmizdə qida təhlükəsizliyi haqda qanun yoxdur. Qanun olmayan yerdə isə cinayətin baş verməsi labüddür”.



### “800 mal sertifikatsız satılır - ”KİA" ”Shevrolet” avtomobilləri insanları təhlükəyə düçar edə bilən..."

**E.Hüseynov sertifikatlaşdırma, istehlakçıların hüquqlarını qoruyan xidmətlərin mütləq şəkildə müstəqil olmasının qida təhlükəsizliyi sahəsində vəziyyətin müsbətə doğru dəyişməsində böyük rol oynayacağını düşünür:** “Əlimdə 800 mal və xidmətin sertifikatlaşdırılmadan satılması haqda siyahı var. Belə məhsullar sırasında qida, ət məhsulları, elektrik cihazları, hətta nəqliyyat vasitələri də var. Məsələn, ”KİA" “Shevrolet” avtomobilləri insanları təhlükəyə düçar edə bilən mallar sırasındadır".

### “Hacı Allahşükür Paşazadə cəmiyyətə...”

**E.Hüseynov murdar ət, ölü heyvanların satışına biryolluq nöqtə qoyulması üçün çox maraqlı bir təkliflə çıxış etdi:** “İlk növbədə əhali maarifləndirilməlidir. Ölkəmizin din xadimi Hacı Allahşükür Paşazadə cəmiyyətə belə halların qarşısının alınması üçün çağırış etməlidir. Din xadimi bu istiqamətdə müəyyən fikirlərlə əhaliyə müraciət etməlidir. Hacı Allahşükür Paşazadə çağırış etsə, ”Leşyığanlar mafiyası"nı dayandıra biləcək prosesin başlayacağına əminəm.

Belə hallara qarşı ictimai qınaq artmalı, ictimai nəzarət olmalıdır. Murdar ət satışı yerli bələdiyyələrin, polis orqanlarının gözü qarşısında baş verir".

### Murdar ət satışına görə cərimələrin miqdarı 10 dəfə qaldırılsın!

**E.Hüseynov murdar ət satışına görə cərimələrin miqdarının qaldırılmasının da vacib olduğunu deyir:** “Bakıya 1-2 ton murdar ət gətirən şəxsi tutub maksimum həddə cərimə etsələr, o, 400 manat verib canını qurtaracaq. Və yenidən rayona qayıdıb Bakıya növbəti partiya murdar ət gətirəcək. Cərimələr 3-4 min manata qədər qaldırılmalıdır”.

Xatırladaq ki, murdar ətlər əsasən şadlıq evlərində, restoranlarda istifadə edilir. Həmçinin kolbasa və sosislərin istehsalında da mənşəyi bilinməyən ətlərdən geniş istifadə olunur. Azərbaycanda fəaliyyət göstərən əksər kolbasa şirkətləri ölmüş heyvanın ətindən məhsul hazırlayıb əhaliyə sırıyır. Ötən saylarda iki şirkətin bu istiqamətdəki fəaliyyətinə toxunmuşduq. Həmin şirkətlər “1000 bərəkət, halal nemət”, digəri “Delikates” kolbasa-sosis hazırlayan şirkət idi. Bu iki şirkət sonradan mətbuata açıqlamalarında fəaliyyətlərinin şəffaf, istifadə etdikləri ətin normal olduğu bildirmişdilər. Amma ortada olan gerçəklik, faktlar başqa məqamlardan xəbər verir.

**Mövzuya təkrar qayıdacağıq.**

❑ **E.MƏMMƏDƏLİYEV**

# Oğurluğun bütün halları üzrə cəzalar ağırlaşdırılır

**Azərbaycanda oğurluğa görə cəzalar bir neçə dəfə ağırlaşdırılır, eyni zamanda mütəşəkkil dəstə oğurluğunun minimum həbs müddəti uzadılır. Milli Məclisdən APA-ya verilən məlumata görə, prezidentin təqdimatı ilə Cinayət Məcəlləsinin 177-ci (Oğurluq) maddəsinə əlavə və dəyişikliklər ediləcək.**



Maddənin 1-ci bəndinə təklif olunan dəyişikliyə əsasən oğurluq, yəni özgənin əmlakını gizli olaraq talama 500 manatdan 1000 manata qədər cərimə və ya 180 saatdan 240 saatadək ictimai işlər və ya 2 ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. Hazırda isə bu cəza yüz manatdan yeddi yüz manatadək miqdarda cərimə və ya yüz səksən saatdan iki yüz qırx saatadək ictimai işlər və ya iki ilədək müddətə islah işləri və ya iki ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır.

Maddənin 2-ci bəndinə təklif edilən beşinci hissəyə görə, oğurluq “zərərçəkmiş şəxsin üzərindən, cibindən, çantasından və ya digər əl yükündən çıxarılmaqla törədildikdə, 3 min manatdan 5 min manatadək miqdarda cərimə və ya 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”.

Maddənin 3-cü bəndinə təklif edilən dəyişikliyə görə, “eyni əməllər: mütəşəkkil dəstə tərəfindən törədildikdə, külli miqdarda ziyan vurmaqla törədildikdə, əvvəllər talama və ya hədə-qorxu ilə tələb etməyə görə iki dəfə və ya daha çox məhkum edilmiş şəxs tərəfindən törədildikdə 7 ildən 12 ilədək azadlıqdan məhrumetmə ilə cəzalandırılır”. Hazırda isə bu cəza 6 ildən 12 ilə qədərdir.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və mayın 6-da müzakirəyə çıxarılacaq.

YENİ MÜSAVAT
N 97 (6418) 5 may 2016

**MSK** katibi Mikayıl Rəhimov 90 saylı Ağdaş seçki dairəsində 18 iyunda keçiriləcək deputat seçkisi, seçkiyə hazırlığın gedişi ilə bağlı "Yeni Müsavat"ın suallarını cavablandırıb.

# "İndiyədək yeganə və ilk imza vərəqələri verilən deputatlığa iddiaçı İlqar Məmmədovdur"

## MSK katibi Mikayıl Rəhimov: "Şəki Apelyasiya Məhkəməsinin 29 apreldə çıxardığı qərara uyğun olaraq REAL sədrinin haqqında qərar qəbul olunacaq"

***- Mikayıl bəy, 90 saylı seçki dairəsində seçkilərlə bağlı proses hazırda hansı mərhələdədir, necə gedir?***

- 2015-ci il 17 noyabrda MSK 90 saylı Ağdaş seçki dairəsində seçkilərin nəticələrini ləğv etmişdi. Bu il aprelin 12-də isə ölkə prezidenti cənab İlham Əliyev sərəncam verərək 90 saylı seçki dairəsində iyunun 18-də seçki keçirilməsini təyin edib. MSK aprelin 16-dan bu istiqamətdə öz öhdəsinə düşən vəzifəni icra eləməyə başlayıb. Demək olar ki, bütün dairə seçki komissiyasının ərazisində seçki mühitinin yaradılması üçün tədbirlər görülüb, plakatlar asılmağa başlayıb. MSK və DSK işini davam etdirir. Seçki prosesi qanunauyğun olaraq öz tempi ilə gedir. 90 saylı dairədə qanunun tələblərinə uyğun normal seçkilər keçiriləcək.

***- Mayın 4-dək neçə nəfər namizədliyini irəli sürməklə bağlı müraciət edib?***

- Artıq bizə müraciət eləyən kifayət qədər namizəd var. Mayın 4-nə olan məlumata görə, artıq 7 nəfər müraciət edib. Onlardan iki nəfəri siyasi partiyaların, beş nəfəri isə öz təşəbbüsü ilə namizədliklərini irəli sürüblər.

***- Namizədlərin irəli sürülməsi müddəti nə zaman başa çatacaq? İmza toplamaq üçün son müddət nə vaxtdır? İmza toplayıb təhvil verənlər varmı?***

- Dediyim kimi, artıq 7 nəfər namizədlik üçün müraciət edib. Onlardan bir nəfərin-İlqar Məmmədovun namizəd irəli sürülməsi qeydə alınıb və ona imza toplanması üçün imza vərəqələri verilib. Yəni ilk imza vərəqələri verilən iddiaçı İlqar Məmmədovdur. Digər 6 nəfərlə bağlı da yəqin ki, yaxın günlərdə müvafiq qərarlar veriləcək. Onların kifayət qədər imkanları var ki, seçki mərhələlərində normal iştirak etsinlər. Hələ yalnız İlqar Məmmədov üçün imza vərəqələri verilib, ancaq bugünədək həmin imza vərəqələri və digər sənədlər geri qaytarılmayıb.

***- Namizədlərin telekanallar və mətbuatda təbliğat-təşviqat kampaniyasının aparılması işi necə tənzimlənəcək?***

- Seçki Məcəlləsinin tələbinə uyğun olaraq siyasi partiyalara və partiyalar blokuna o halda ödənişsiz efir vaxtı ayrılır ki, ölkə ərazisindəki seçki dairələrinin 60-dan çoxunda namizəd irəli sürsünlər. Bilirsiniz ki, 18 iyunda yalnız bir dairədə seçki keçiriləcək. Ona görə də hansısa siyasi partiyanın ödənişsiz efir vaxtından istifadə eləmək hüququ yoxdur. Amma ödənişli efir vaxtından istifadə eləmək üçün bizə müraciət eləyən kütləvi informasiya vasitəsinin hansından istəsələr yararlana bilərlər.

***- Aprelin 29-da Şəki Apelyasiya Məhkəməsində REAL sədrinin barəsində həbs qərarının dəyişdirilməsi ilə bağlı müraciətə baxıldı, ancaq müraciət təmin edilmədi. İlqar Məmmədovun həbsdə olması onun deputatlığa namizədliyinin qeydə alınması və seçkidə namizəd kimi iştirakına hansısa hüquqi baryer yarada bilərmi?***

- İlqar Məmmədov həqiqətən hazırda məhkumluq həyatı yaşayır. Ötən ilin oktyabr ayında İlqar Məmmədov Ali Məhkəməyə kasasiya şikayəti vermişdi və Ali Məhkəmə onun şikayətini qismən təmin edərək Şəki Apelyasiya Məhkəməsinə göndərmişdi ki, İlqar Məmmədovun iddiasına yenidən baxılsın. Ali Məhkəmənin oktyabr ayında çıxardığı qərar qüvvəyə mindikdən sonra İlqar Məmmədov məhkum yox, təqsirləndirilən şəxs qismindəydi. Ona görə də İlqar Məmmədovun passiv seçki hüququ yarandı. Əgər insan məhkumdursa, namizəd ola bilməz. Amma onun haqqında Ali Məhkəmənin qeyd etdiyim qərarı olduğuna görə Şəki Apelyasiya Məhkəməsində qərar çıxarılana qədər İlqar Məmmədovun passiv seçki hüququ yarandı. Aprel ayının 25-də İlqar Məmmədov bu hüququndan istifadə edərək namizəd olması ilə bağlı müraciət elədi. DSK onun müraciətini qəbul edərək aprelin 28-də namizədliyini təsdiq etdi. Bizdə olan məlumata görə, aprelin 29-da Şəki Apelyasiya Məhkəməsi İlqar Məmmədov haqqında qərar çıxarıb. İlqar Məmmədov imza vərəqələrini dairə seçki komissiyasına qaytaranda Şəki Apelyasiya Məhkəməsinin müvafiq qərarını da təqdim eləməlidir. Dairə seçki komissiyası İlqar Məmmədov haqqında Şəki Apelyasiya Məhkəməsinin çıxardığı qərara baxıb onun namizəd olmasının mümkün olub-olmadığını müəyyənləşdirəcək. Seçki Məcəlləsinin 13.3.1 maddəsində qeyd olunur ki, əgər vətəndaşın üzərində məhkəmənin çıxardığı məhkumluq hökmü varsa, həmin vətəndaş seçkidə namizəd ola bilməz. Əgər İlqar Məmmədovun haqqında Şəki Apelyasiya Məhkəməsinin 29 aprel tarixli qərarı Seçki Məcəlləsinin 13.3.1 maddəsinə uyğundursa, yəni onun məhkumluğu saxlanılıbsa, namizədliyi qeydə alınmayacaq. Əks təqdirdə, əgər digər sənədləri seçki qanunvericiliyinin tələblərinə uyğundursa, İlqar Məmmədovun namizədliyi qeydə alına bilər. Seçki Komissiyası Seçki Məcəlləsinin tələbinə uyğun olaraq İlqar Məmmədovla bağlı indiyədək hansı addımlar atılmalıdırsa, onu həyata keçirib. Bundan sonrası qalır Şəki Apelyasiya Məhkəməsinin onun barəsində hansı qərarı çıxardığına. Həmin qərara uyğun olaraq İlqar Məmmədov haqqında qərar qəbul olunacaq. İlqar Məmmədov haqqında veriləcək qərar məhz Şəki Apelyasiya Məhkəməsinin verdiyi qərara əsaslanacaq, siyasi qərara yox. Heç bir siyasi qərardan söhbət gedə bilməz.



***- Seçki kampaniyası başlayandan indiyədək MSK-ya şikayətlər daxil olub?***

- Bu günədək nə dairə seçki komissiyasına, nə də Mərkəzi Seçki Komissiyasına şikayət daxil olmayıb. Ümid edirəm elə bir problem yaranmaz ki, hansısa namizəd olmaq istəyən şəxs, namizəd şikayət etməyə məcbur olsun.

❑ **Etibar SEYİDAĞA**

# Millət vəkili Beynəlxalq Bankın şəhid ailələrinə güzəşt etməsini alqışladı

## Vahid Əhmədov: "Arzu edərdim ki, bütün banklar bu addımı atsın"



Vahid Əhmədov

**Azərbaycan Beynəlxalq Bankı aprelin əvvəlində Ermənistan silahlı birləşmələrinin təxribatlarının qarşısının alınması zamanı şəhid olmuş hərbçilərimizin kredit borcları ilə bağlı qərarını icra edib. Bu barədə "Yeni Müsavat"a ABB-nin mətbuat katibi Yadigar Cəfərli məlumat verib. O bildirib ki, araşdırmaların nəticələrinə əsasən, bu şəxslərdən hər hansı birinin banka kredit borcunun olması müəyyənləşdiyi halda borc öhdəliyi bağlanıb.**

Yadigar Cəfərli ordumuza bu şəkildə dəstəyi Azərbaycan Beynəlxalq Bankının özünə mənəvi borc bildiyini qeyd edib: "Şəhid hərbçilərimizin banka kredit borcunun olub-olmadığını müəyyən etmək üçün araşdırma aparılıb. Araşdırmalar və kredit öhdəliklərinin ləğvi şəhid hərbçilərimizin ailə üzvlərinin müvafiq bank filiallarına fərdi müraciətləri əsasında aparılıb".

Qeyd edək ki, aprelin əvvəlində, hərbi əməliyyatların başladığı ilk günlərdə də Azərbaycan Beynəlxalq Bankı ordumuza dəstək üçün müəyyən addımlar atmışdı. Bankın baş ofisində qanvermə aksiyası keçirilmiş, bu aksiyada 134 nəfər bank əməkdaşı qan vermişdi.

Bu kimi hallara Türkiyə təcrübəsində daha çox rast gəlinir. Banklar, biznes qurumları şəhid ailələrinə müvafiq güzəştlər edirlər. Azərbaycanda bu təcrübənin tətbiqi də cəmiyyətdə müsbət qarşılanıb.

**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü, deputat Vahid Əhmədov belə bir addımı digər banklara da tövsiyə edib:** "Ümumiyyətlə, bankların nə qədər imkanları varsa, çalışmalıdırlar ki, belə güzəştlərə getsinlər. Belə təkliflər bizim tərəfimizdən də verilib ki, ümumiyyətlə, şəhid ailələrinin bütün güzəştlərdən yararlanması təmin olunmalıdır. Onların həm kredit borcları, həm yaşam şəraiti, təhsil xərcləri və sairlə əlaqədar bütün güzəştlər onlara tətbiq edilməlidir. Beynəlxalq Bank bunu edibsə, mən bu addımı alqışlayıram. Bütün banklar buna getməlidir, yəqin ki, gedəcəklər. Mən və Əli Məsimli vaxtilə keçmiş kreditlərlə bağlı xüsusi təkliflər hazırlayıb prezidentin islahatlar üzrə köməkçisinə, Maliyyə Bazarlarına Nəzarət Palatasına, Milli Məclisin sədrinə göndərmişik. Ki, bu məsələyə baxılsın. Bu güzəştlərin şəhidlərə də edilməsi vacibdir. Mən arzu edərdim ki, bütün banklar bu addımı atsın".

❑ **Nərgiz LİFTİYEVA**

# Tağı Əhmədovun oğlu istintaqa Akif Çovdarov haqda nə deyib - sensasion təfərrüat

## Metropolitenin sabiq rəisi MTN generalına verdiyi 3 milyon xəraca görə üzləşməyə çıxarıla bilər

**MTN-dəki mütəşəkkil cinayətkar qruplaşmanın ən qorxunc üzvü hesab edilən general Akif Çovdarovun Bakı Metropoliteninin keçmiş rəisi Tağı Əhmədovdan təhdid və şantaj yolu ilə 3 milyon manat qoparmasının yeni təfərrüatları məlum olub. Çovdarov Tağı Əhmədovu Xətai Rayon Məhkəməsində hakim işləyən oğlu Rauf Əhmədovla təhdid edib, onu həbs edəcəyi ilə hədələyib, habelə digər ailə üzvlərinə qarşı repressiv addımlar atılacağı haqda xəbər göndərib.**



Tağı Əhmədov



Akif Çovdarov

Ümumiyyətlə, A.Çovdarov T.Əhmədovu ona görə hədəfə alıb ki, Bakı Metropoliteninin rəhbəri qazandığı pullardan MTN-in "kassası"na haqq vermirmiş. Məlum olduğu kimi, Mahmudov-Çovdarov bandası aralarında nazirlər də olmaqla, bir çox yüksək vəzifəli məmurları onlara aylıq haqq verməyə məcbur edib.

Virtualaz.org saytının istintaqa yaxın mənbəyə istinadən yaydığı məlumata görə, Akif Çovdarovun Tağı Əhmədovdan 3 milyon manat alması barədə ifadəni onun özü yox, XİN-də işləyən oğlu Ruslan Əhmədov və qardaşı oğlu Əli Əhmədov veriblər. Onlar istintaqa təqdim etdikləri yazılı ifadədə göstəriblər ki, 3 milyon manatı Fəxri Xiyabanın qarşısında Akif Çovdarova şəxsən çatdırıblar. Gözlənilir ki, bu iş üzrə Tağı Əhmədov Akif Çovdarovla yenidən üzləşdiriləcək. Hərçənd ki, onun adı Çovdarovun işində rəsmən zərərçəkən kimi keçmir.

Maraqlıdır ki, Tağı Əhmədov Akif Çovdarovun ondan 3 milyon manat almasını təkzib edib. Sabiq rəis musavat.com əməkdaşına deyib ki, mətbuatda barəsində yer alan informasiyalar həqiqətə əsaslanmır. T.Əhmədov hətta deyib ki, bu məlumatlar onda gülüş doğurur. Son məlumatların yayılması həqiqətən də gülməli vəziyyət yaradıb və obyekti də bəllidir.

Xatırladaq ki, T.Əhmədovun A.Çovdarova 3 milyon verməsinin səbəbi kimi şantaj göstərilirdi. Bu haqda musavat.com-a etibarlı mənbə məlumat verib. Həmin məlumatda bildirilir ki, Akif Çovdarovun əlində Tağı Əhmədov haqda şok videogörüntülər olub. General həmin görüntülər olan diskin üzə çıxarılmaması müqabilində metropolitenin sabiq rəisindən 3 milyon manat qoparıb.

❑ **E.HÜSEYNOV**

**Bir aydır ki, cəbhədə gərginlikdir. 2-5 apreldə ermənilərin atəşkəsi pozması nəticəsində yaşanan 4 günlük müharibədən sonra atəşkəs razılaşması olsa da, düşmən buna əməl etmədi. Aprelin son günlərində də Tərtər, Ağdam istiqamətində erməni təxribatları davam etdi. Faktiki olaraq biz aktiv müharibə şəraitindəyik və hər an hər böyük savaş da başlaya bilər. Hər bir halda, sülhə razılıq verməyən erməniləri işğal etdikləri torpaqlarımızdan gec-tez qovmalıyıq. Bu, bir reallıqdır və zaman, bəlkə də an məsələsidir...**



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

# Əli Kərimlinin xəyanət kimi ismarışı

Hələlik isə Azərbaycan öz sülhsevərliyini bütün dünyaya bir daha nümayiş etdir, şübhəsiz ki, bu doğru qiymətləndirilən siyasətdir.

Bir gerçəklik də budur ki, Azərbaycan xalqı bütün situasiyalarda müharibə məsələsində vahid mövqedədir. Müxalif qüvvələr də yalnız bir kiçik - radikal zümrə istisna olmaqla, erməni başına vuracağımız **YUMRUĞUMUZUN** bir parçasıdır...

Yalnız Əli Kərimli və onun ətrafındakı bitmiş-tükənmiş adamlardır ki, savaş başlayanda "bizdən xəyanət gözləməyin, müharibədə dövlətin yanındayıq" bəyanatını verdilər, ancaq bu vədə də cəmi 3-4 gün sonra xilaf çıxdılar. Bu dönüklük siyasətini günlər keçdikcə hər kəs aydın şəkildə müşahidə etməkdədir...

Hazırda isə Əli Kərimlinin müharibə, erməni ilə mübarizə məsələsində bağlı tutduğu mövqedən heç onun özü də baş aça bilməz. Yenə də "Haykırtı bəy" öz ampulasındadır; nə etdiyini kəndisi belə anlamır *(bəlkə də anlayaraq, qəsdən edir)*, özü bir söz deyir, ətrafındakı "ünlü siyasətçilər" bir başqa söz... Hətta özü belə bugünkü fikrini sabah unudur və bu dəfə onunla daban-dabana zidd mövqe sergiləyir...

Bu "tayı-bərabəri olmayan", AXCP-lərdən birinin rəhbəri olan kəs bir neçə gün öncə Azərbaycanın Ermənistana necə cavab verməli olması haqda "mükəmməl konspekt" yazdı: "**...Biz neyləsək də Rusiya hər zaman Ermənistana daha yaxın olacaq, Rusiyanı formal neytralitetə gətirmək sevdası ilə onun qarşısında daha sözəbaxan olmağa ehtiyac yoxdur...**"

Həmçinin "lider" belə qənaətə gəlib ki, "bizim orduya müdafiədən əks-hücuma keçmək əmri verilməyəcək *(bunun üçün çox gözəl fürsət əldən çıxarıldı)*. O zaman heç olmasa, bütün cəbhə boyu müdafiə xətti ciddi şəkildə möhkəmləndirilməlidir" *(Faktiki olaraq adam təslimçilik aşılayır!)*

Bundan bir gün sonra isə "lider" yazır: "Xəbəriniz var ki, ölkəmizi bir çox məğlubiyyət ssenarilərindən məhz Ermənistan rəhbərliyinin maksimalizmi "qoruyur""?" Ermənistanın Rusiyanın təkliflərinə "yox" deməsini Əli Kərimli belə qiymətləndirir: "Düşmən dövlətin bu maksimalizmi Allahın bizə lütfüdür. Eybi yox, qoy hələlik Ermənistanın maksimalizmi bizim üçün neqativ olan bir çox ssenarilərn qarşısını alsın..." *(Erməni maksimalistiyini bizim "xilaskarımız" kimi təqdim etməyə bir ad tapa bilmədim. Adama deyin bilsin, bizi qoruyan göydə Allah, yerdə qüdrətli ordumuz, dövlətimizdir!)...*

Mayın 1-də prezident İlham Əliyev təmas xəttində yerləşən Tərtər, Bərdə və Ağdam rayonlarında oldu, orada mühüm açıqlamalar verdi. Birmənalı olaraq bəyan etdi ki, Ermənistanın təxribatlarına layiqli cavab veriləcək və heç bir güzəştdən söhbət gedə bilməz. Ümumiyyətlə, Qarabağ məsələsində praqmatik, reallıqları, gerçəklikləri dəqiqliyi ilə bilən dövlət başçısı, Ali Baş Komandan kimi nə etmək gərəkirsə, onu edib İlham Əliyev...

Prezidentin səfərindən, bəyanatlarından sonra isə Əli Kərimli və onun "müdrik" müavinləri, müttəfiqləri dərhal başladılar ki, Azərbaycan hakimiyyəti torpaqların azad olunması ilə bağlı həlledici oyunçu deyil, prosesləri Moskva idarə edir, atəşkəsi də onlar xahiş edib...

Nurəddin Məmmədli adlı bir günün içində liderini dəyişən "siyasətçi" həmçinin deyib ki, hazırda Qarabağla bağlı proseslər Ə.Kərimlinin irəli sürdüyü konsepsiyalar əsasında davam etməlidir...

Mandatsız qaldığı üçün radikal mövqe sergiləyərək, Milli Şuradan, Əli Kərimlidən "siyasi sığınacaq" alan Gültəkin Hacıbəyli də açıqlama verib ki, hazırda Qarabağa dair bütün məsələləri yönləndirən Rusiyadır, məsələ onlardan asılıdır, Azərbaycan hakimiyyəti heç bir rol oynamır...

İndi başıpozuqluğa, təzadlara diqqət edin; Əli əvvəl - aprelin əvvəllərində deyirdi ki, müharibəni davam etməliyik, atəşkəs yolverilməzdir. İndi isə deyir ki, bu hakimiyyət müharibə edə bilməz, sərhədləri olduğu yerdə möhkəmlətməli, sığınacaqlar tikməliyik...

"İdeoloqlar" habelə deyirlər ki, Qarabağ məsələsində Azərbaycanlıq bir iş yoxdur, hər şey Rusiyadan asılıdır. Ağıllılar, əgər hər şey Rusiyanın əlindədirsə, niyə Əli Kərimlinin konsepsiyasını başına çırpıb demirsiniz ki, niyə Rusiya ilə bütün qapıları bağlamalıyıq, qıcıq verməliyik? Məgər Gürcüstan olaylarını unutmuşunuz? Yoxsa onun Azərbaycanda təkrarlanmasını istəyirsiniz?

Həm deyirsiniz Rusiya həlledici rola malikdir, həm də təklif edirsiniz ki, ondan tam üz döndərək, diş qıcayaq, rus ayısı da üzümüzü parçalasın?!

Bəli, Rusiya zamanında Qarabağ münaqişəsini yaradan, bu gün də öz rolunu qoruyub saxlayan qüvvədir. Amma bizim çıxış yolumuz ona yumruq göstərmək deyil. Bizim Rusiyaya gücümüz çatmaz, ona birmənalı şəkildə, korazehincəsinə dirsək göstərsək, vəziyyət daha da acınacaqlı olar. Bu reallığı dərk etmək və ancaq siyasi doğruları həyata keçirmək gərəkir...

***

Və nəhayət, Əli Kərimli "İlham Əliyev mümkün olanı niyə edə bilmir?" yazısında məsələyə sırf şəxsi maraqlarından yanaşaraq, dünyaya xəyanətə bərabər bir mesaj verib. Onun ismarış xarakterli qeydləri bundan ibarətdir ki, sabah böyük miqyaslı müharibəyə - torpaqlarımızı azad etmək üçün əməliyyatlara başlasaq, xarici jurnalistlər Bakıya gəlib İlham Əliyevə korrupsiya və demokratiyadan sual verməlidir, verəcəklər, dövlət rəhbərliyi də bu suallarla üzləşməyə hazır deyil. Ona görə də hakimiyyət Qarabağda savaşlara başlamayacaq.

Yəni ki, ay erməni, biz dünyaya xəbər verdik, sənə dəstək üçün neyləmək lazım olduğunu dedik, arxayın ol!

Sonra da bu adamlar siyasətdən danışırlar, dövlətçilikdən dəm vururlar. Görünən isə budur ki, öz maraqları naminə nə desən edərlər...

Əlbəttə, mövcud hakimiyyət ideal deyil. Ancaq fakt bundan ibarətdir ki, mövcud iqtidar Əli Kərimlinin başıpozuq, əlinə fürsət düşsə fərqli düşünənlərin, gerçəkləri deyənlərin başını kəsməyə hazır olan dəstəsi ilə müqayisə belə oluna bilməz. Ən əsası, siyasi mübarizədə Qarabağ məsələsi üzərindən manevrlər, xəyanətkar davranışlar həm də hüquqi baxımdan cinayətdir!

**Müharibə gerçəkləri, qaydaları deyilən bir anlayış var. Buna tapınmayan hər kəs suçludur...**

# Azərbaycan müxalifəti ABŞ-dakı seçkiyə niyə laqeyddir-üç səbəb...

## Razi Nurullayev: "Onların gündəmində müxalifəti maraqlandıracaq məqamlar yoxdur"

**Texas ştatının senatoru Ted Kruz İndiana ştatındakı ilkin seçimlərdə məğlub olduqdan sonra artıq Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd olmaq uğrunda mübarizə aparmayacağını bildirib. T.Kruz "artıq qələbəyə gedən yolum bağlıdır" deməklə qərarını çatdırıb.**

Qeyd edək ki, T.Kruz milyarder Donald Trampın əsas rəqibi idi. Onun mübarizədən çəkilməsi isə o deməkdir ki, Respublikaçılar Partiyasından ABŞ prezidentliyinə namizəd məsələsində D.Trampı artıq praktiki olaraq mütləq qalib saymaq olar.

Eyni zamanda ABŞ telekanallarının hesablamalarına görə, Vermont ştatının senatoru Berni Sanders Demokratlar Partiyasının İndiana ştatındakı praymerizində Hillari Klintonu üstələyir. Səslərin təxminən 70%-nin hesablanması ilə B.Sanders keçmiş dövlət katibini 7% qabaqlayır.

Amma bu ilkin seçimdəki qələbənin B.Sandersin Demokratlar Partiyasından ABŞ prezidenti olmağa namizəd kimi seçilməsinə yardım edəcəyi ehtimalı çox aşağıdır. Çünki H.Klintona çatmaq praktiki olaraq qeyri-mümkün görünür.

Artıq dünyanın əksər siyasi təhlilçiləri ABŞ prezidentliyi uğrunda mübarizənin Hillari Klintonla Donald Tramp arasında gedəcəyinin şübhəsiz olduğunu bildirirlər.

Azərbaycan mediasında da ABŞ-dakı seçkilər izlənilir. Lakin diqqəti cəlb eləyən başqa



bir məqam da var. Azərbaycanın müxalifət partiyaları ABŞ-dakı seçki mübarizəsinə bundan əvvəlki zamanlarda keçirilmiş seçkilərlə müqayisədə çox az maraq göstərir. ABŞ-da prezident seçkilərinə Azərbaycanda, əsasən də müxalifət düşərgəsində əvvəllər çox ciddi maraq olardı. Həttа konkret namizədi sanki burda prezident seçilir kimi dəstəkləyirdilər. Bəs maraqlıdır, budəfəki seçkilərə nədən əvvəlki diqqət yoxdur?

**Siyasi ekspert, Yeni AXCP-nin sədri Razi Nurullayev də "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, doğrudan da Amerikada keçirilən prezident seçkilərinin Azərbaycanda keçirilən prezident seçkiləri qədər önəmi olurdu. Hər kəs bundan yazır və bundan danışardı. İndi doğrudur ki, bu yoxdur. Bu vəziyyətin isə səbəbləri var:** "Şəxsən mən demək olar ki, ABŞ-da prezident seçkilərini yaxından izləyirəm və hər gün bu haqda bir neçə yerli və xarici mənbələrdən oxuyuram. Bu barədə danışmamağımızın, müxalifətdə əvvəlki marağın olmamasının bir neçə səbəbi var. Birinci səbəb odur ki, hələ konkret namizədlər müəyyən edilməyib. Respublikaçılar və Demokratlar iyun ayında namizədlərini rəsmən irəli sürəndən sonra yəqin ki, Azərbaycan müxalifəti də, necə deyərlər, "seçim"ni edəcək. Açıq görünür ki, Respublikaçılardan Donald Trump, Demokratlardan isə Hillari Klinton favoritdir. Amma "çıxmayan cana ümid çoxdur". İyunu gözləyək və ondan sonra fikrimizi deyərik.

İkinci səbəb isə prezident seçkilərində iştirak edən favorit namizədlərin daha çox ABŞ-ın daxili siyasətinə və eyni zamanda geopolitik məsələlərə yer ayırmasıdır. Onların gündəmində Azərbaycan müxalifətini maraqlandıracaq məqamlar yoxdur. Əgər onlar demokratik inkişaf, ölkələrə azadlıq, rejimlərin dəyişdirilməsi və Amerikanın demokratiya, azad seçki mübarizəsi aparanların yanında olduğunu söyləsəydilər, yəqin ki, müxalifətin diqqətini çəkərdilər. Həmin namizədlər isə hələ ki bir-birilərinin paxırlarını açmaqla, müsəlman dünyası ilə bağlı açıqlamalarla, Rusiyanı yıxıb-sürüməklə, Amerikanı daha böyük etməklə və Suriya ilə bağlı məsələlərlə gündəmdədirlər. Azərbaycan müxalifəti görür ki, demokratiyanın yayılması kimi mövzulara o namizədlər yer ayırmırlar".

**Üçüncü səbəbə gəlincə, R.Nurullayev qeyd etdi ki, müxalifətin favorit namizədləri daha yaxından tanıması ABŞ-dakı seçkilərə marağı azaldıb:** "Donald Trampın Bakıdakı obyekti "lenti kəsilməmiş" qalıb. Qalmaqallarla gündəmdə olur və onun əsas qayəsi Amerikanı super gücə çevirməkdir. Bu baxımdan Donald Trampın Azərbaycanın siyasi elitası ilə yaxın münasibətlər qurması qaçılmazdır. Zatən Respublikaçılar hər zaman siyasi iqtidarları dəstəkləyirlər. Hillari Klintona gəldikdə isə o artıq bir neçə dəfə hakimiyyətdə olub. Birinci xanım və ABŞ-ın dövlət katibi qismində. Həmin zamanlarda Azərbaycanla bağlı müəyyən işlər görüb, ölkəmizdə səfərdə olub. Amma Azərbaycan müxalifəti onu "dişli" siyasətçi kimi tanımır. O prezident olarsa, Azərbaycanın siyasi hakimiyyəti ilə əlaqələri kəsmək və onları dəyişmək kimi niyyəti yoxdur. Bu da əsas verir ki, biz müxalifət olaraq böyük xəyallar qurmayaq və ümidimizi okeanın o tayına yox, elə ətrafımızda olan xalqımıza bağlayaq".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 97 (6418) 5 may 2016

**Müasir dünyanın yaşam şərtləri ciddi surətdə dəyişdiyi kimi, siyasi, ideoloji mübarizə, təbliğat metod və mexanizmləri də tamamilə fərqlənir. Əgər illər öncə, belə demək mümkünsə, gizli fəaliyyətlər, səhnəarxası proseslər effekt verirdisə, bu gün onlar elə də ciddi əhəmiyyət kəsb etmir. Zəmanəmizin savaş, mübarizə üsulları hətta cəmi 5 il öncə ilə eyni deyil. Artıq şüurlara bunu həkk etmək, insanların bu reallıqları qəbul etməsi gərəkir. Əks təqdirdə, biz yenə də uduza bilərik. 10-15 il sonra çevrilib geri baxanda yenə də görərik ki, Üzeyir Hacıbəyov demişkən, camaat ...fil boyda iş görür, biz hələ də siçan boyda işlərin peşinə düşmək zorundayıq...**

# Yarım milyon insanın ABŞ-dan Qarabağ tələbi...

## Ağ Evdə açılan petisiya hansı reallıqları üzə çıxardı; indi söz ABŞ-ındır...






Müşahidələr göstərir ki, çağdaş dövrümüzün ən güclü silahı informasiyadır. Əlbəttə, söhbət informasiyanı, doğruları ünvanına çatdırmaqdan gedir, boşuna güllə atmaqla nəsə əldə etmək mümkünsüzdür. İndi informasiyanı, həqiqətləri lazımi instansiyalara çatdırmaq üçün bəlli qaydalar formalaşdırılıb. Bu gün informasiya savaşı, təbliğat daha çox sosial şəbəkələr üzərindən aparılır. Təsadüfi deyil ki, dünya liderləri, prezidentlər, beynəlxalq qurumların rəhbərləri, Ağ Ev rəhbərliyi ilkin informasiyanı tvitter, facebook üzərindən paylaşırlar...

Həqiqətlərin çatdırılması, onlara reaksiyalar alınması üçün isə daha dövlətlərarası yazışmalar, məktublaşmalar, fakslaşmalar və s. kimi metodlar ya tarixin arxivinə göndərilib, ya da onlara ciddi önəm verilmir. Artıq haradasa kütləvi aksiya keçirmək metodu da lazımi effekt vermir, ona reaksiyalar yetərli olmur. Müasir dövrümüzün öz təşviqat forması ərsəyə gəlib və indi ona ciddi yanaşılır. Beynəlxalq medianı izlədikdə bunu daha aydın görmək olur ki, hansısa diplomatik uğur əldə edilməsi, problemin çatdırılması, həlli üçün petisiya açılır, fakt və tələb orda qoyulur, nəticə əldə edilir. Yüzlərlə belə nümunə var.

Ağ Evin rəsmi internet səhifəsinə nəzər salanda görəcəyik ki, burada yüzlərlə petisiya açılıb. ABŞ-da, dünyanın müxtəlif yerlərində olan problemlər burada qısa şəkildə qoyulur, insanlar bu petisiyaya səs verir, əgər yetərsay olursa, məsələyə ABŞ prezidenti (indiki halda Barak Obama) səviyyəsində reaksiya verilir və Birləşmiş Ştatlar qoyulan məsələnin həlli üçün səylər göstərmək zorunda qalır. Çünki bunu yüz minlərlə insan tələb edir. Petisiyalar vasitəsilə beynəlxalq aləmdə çox ciddi problemlər aradan qaldırılır...

Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının təşəbbüsü ilə (AVCİYA) aprelin 6-dan Ağ Ev Administrasiyasının internet resursunda qurumun prezidenti, deputat Elxan Süleymanovun imzası ilə "Ədalətin bərqərar olunması və böyük fəlakətin qarşısının alınması naminə" adlı petisiya açılıb. Bu bir ay müddətində çox uğurlu bir kampaniya aparılıb və tələb olunan 100 min səs əvəzinə petisiyaya mayın 4-dək 315 minə yaxın insan səs verib. Qarşıdakı iki gündə isə səsimizin 400 minə yaxınlaşacağı şübhəsizdir. Layihədə iştirakçı olduğumdan bir məqamı da bilirəm ki, əslində petisiyaya mayın ilk günlərinədək həm Azərbaycandan, həm Türkiyədən, həm dünyanın müxtəlif ölkələrindən yarım milyondan çox insan səs verib. Ancaq çox təəssüflər olsun ki, Ağ Evin internet resursu kiçik texniki səhvlər olan səsləri *(məsələn, poçt indeksinin düzgün yazılmaması, ərazinin düzgün göstərilməməsi, e-mailin işlək olmaması və s.)* qeydə almayıb. Ciddi rəqəmdir: qeydə alınmayanlarla birlikdə yarım milyon, rəsmiləşdirilən rəqəmlərdə isə 400 minə doğru irəliləyən sayda SƏS - insan Amerikadan, Barak Obamadan Azərbaycanın haqq səsinə, işğal faktına biganə qalmamağı tələb edir. Mümkünsüzdür ki, buna reaksiya verilməsin, nəticə olmasın...

Petisiya ilə bağlı bir incə məqama diqqət etmək lazımdır. Müraciətin mahiyyəti ümumi şəkildə hər kəsə bəllidir - Qarabağ məsələsi. Ancaq burada çox fərqli bir nüans var: Obamaya ünvanlanan müraciətdə qoyulan tələblər şifahi bir fikirlər deyil, Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi rəsmi şəkildə təsbit olunan bir sənədə - Avropa Şurası Parlament Assambleyasının 2085 (2016) saylı qətnaməsinə dəstək tələbidir.

Həmin sənəddə ilk dəfə olaraq Azərbaycanın Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistan dövləti tərəfindən işğal edilməsi aydın şəkildə göstərilib. Bundan başqa, Obamaya - Amerika Birləşmiş Ştatlarına Ermənistanın Azərbaycana qarşı qəsdən törətdiyi ekoloji böhranın ekoloji təcavüz olması faktı bildirilir, Ermənistan silahlı qüvvələrinin işğal bölgəsindən dərhal geri çəkilməsi tələbi qoyulur, Azərbaycanın işğal edilmiş ərazilərində yerləşən Sərsəng su anbarının hazırkı durumunun humanitar fəlakətlə nəticələnə biləcəyi xəbərdarlığı edilir.

Ağ Ev administrasiyasına AŞ PA-nın 2085 saylı qətnaməsini dəstəkləməsi, Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın azad edilməsinə və bölgədə humanitar fəlakətin qarşısının alınmasına yardım olunması üçün çağırış edilir.

Obama administrasiyası dünyanın ən ciddi qurumlarından olan Avropa Şurası Parlament Assambleyasının qəbul etdiyi sənədi ciddiyə almaya bilməz. Bu onun özünün qeyri-ciddiliyi olardı! Əgər ABŞ bu məsələdə susarsa, hansısa addımlar atmazsa, bu onun təkcə Azərbaycana münasibəti kimi deyil, həm də AŞ PA-ya münasibəti kimi qiymətləndirilə bilər. Bu baxımdan petisiya layihəsində AŞPA qətnaməsinə istinad edilməsi uğurlu texnologiyadır...

Digər bir əhəmiyyətli məsələ isə odur ki, bu gün dünyadakı prosesləri idarə edən qüvvənin ABŞ olması kimsəyə sirr deyil. Bu səbəbdən Ağ Evdən faktlara söykənərək, ən əsası AŞ PA sənədinə istinadla istənilən dəstək olduqca mühümdür.

**Bu bir ay müddətində biz sübut etdik ki, haqq səsimizi dünyaya çatdırmaq, müasir texnologiyalardan istifadə etməkdə aciz deyilik. 100 min səs istədilər, yarım milyondan çox olduq! İndi söz ABŞ-ındır, Obamanındır...**

❑ **Elşad MƏMMƏDLİ**

# Biz daha güclü ola bilərdik...



**Hüseynbala SƏLİMOV**

**Sadə ermənilər Qarabağdan qaçır, siyasətçi ermənilər isə Qarabağa qaçır... S.Sarkisyan gedir, Ter-Petrosyan gəlir... Başa düşmək olmur ki, bunlara nə olub? Niyə vurnuxurlar?..**

"Yaz ayları bir millət kimi ermənilər üçün çətin aydır" deyirlər. Doğrusu, mən belə "etno-bioloji" nəzəriyyələrə o qədər də inanmıram. İndi yazdığım da daha çox bir zarafatdır. Amma hər zarafatda bir həqiqət elementi olur...

Düzdür, indi zarafat məqamı deyil. Amma ifrat pessimizm üçün də elə bir əsas yox... Belə hesab edirəm ki, atəşkəsi pozan ermənilər layiqli və tutarlı cavablarını da alırlar....

Amma bizi başqa məqamlar düşündürməlidir. Bundan sonra nə olacaq?

Biz nə etməliyik? Bu yaxınlarda Ermənistan haqqında məqaləni oxuyurdum. Ölkədə vur-tut 3 milyon əhali var. Ona görə də heç təəccüb doğurmalıdır ki, orada qadınları və qocaları orduya çağırırlar...

Biz onlardan üç dəfə çoxuq... Biz onlardan varlıyıq... Biz onlardan daha imkanlıyıq... Ona görə də biz onlardan güclü olmalıyıq...

Güclüyükmü? Əlbəttə, güclüyük... Amma daha da güclü ola bilərdik... Daha bacarıqlı ola bilərdik. Daha tədbirli ola bilərdik...

Deyə bilərsiniz ki, mövcud olandan artığını arzulamaq xəyalpərəstlərin, romantiklərin şakəridir...

Amma biz də daha əvvəlki romantiklər deyilik, artıq realistik... Amma belə hesab edirik ki, status-kvonun dəyişməsi haqda deyilənlər əslində bizə bir işarədir. Bəlkə də bəzi məqamlara diqqətli ola bilmədik, nələrisə nəzərdən qaçırdıq. Amma aprelin ilk günlərində, elə bütün aprel ayında "Qoymayın, azərbaycanlılar erməniləri qırdı!" deyən tapılmadı.

Hətta ilk dəfə bizimlə hesablaşmaq cəhdləri duyuldu - biz azərbaycanlılar təmas xəttinə az qala "müqəddəs" və "pozulmaz" sədd kimi baxan nümunəvi münaqişə tərəfindən birdən-birə gücə çevrildik... Baxıb gördülər ki, "problem olmağı", döyüşməyi də bacarırıq...

Amma niyə dayandıq? Düşünürəm ki, yenə də Rusiya amili rolunu oynadı... Sizi bilmirəm, mənim D.Medvedevdən zəhləm gedir... Həm ona görə ki, bu adam siyasi oyuncaq olmaq rolunu can-başla qəbul etdi.

İkincisi, mən onu Gürcüstanla müharibə zamanı gördüm... Gürcüstan da öz ərazisindən çıxmamışdı, öz ərazisində nəsə etmək istəyirdi... Amma buna imkan vermədilər...

Sonra Gürcüstan başladı Rusiya haqqında həqiqətləri deməyə. Bir nəticə verdimi? Təəssüf ki, yox...

Bunları niyə deyirəm? Ərz edirlər ki, biz də Rusiya haqqında həqiqətləri deyək... Bəli, deyə bilərik. Amma nəticə verməyəcək...

Təbii ki, bizim Rusiyaya isti münasibətimizin kökündə sırf milli maraqlar dayanmır. Burada hakimiyyətin öz maraqları da mühüm yer tutur - hər növbəti "seçki"də Rusiya özünün "xeyir-dua"sını verir...

Amma çinlilər deyir ki, hər işığın içində bir qaranlıq, hər qaranlığın içində bir işıq olur... Bizim hakimiyyətin Rusiya siyasi isteblişmentilə isti münasibətləri bəzən karımıza da gəlir...

Ona görə də "gözübağlı oyunu" hələ bir müddət davam edəcək... Uşaqlıqda belə oyun oynayardıq - bəli, dəsmalla biri-birimizin gözünü bağlayar və biri-birimizi tutmağa çalışardıq...

İndi otuz ildir ki, Qarabağ uğrunda çarpışırıq... Amma "gözübağlı"... Ona görə ki, otuz ildir, qarşımızda kimin dayandığını yalnız təxmin edə bilirik... Özümüzü elə aparırıq ki, guya, bu, yalnız Ermənistandır. Amma ki, qarşıda Rusiya da var...

"Arxalı it qurd basar!" deyiblər... Ermənilər də illərlə Rusiyanın kölgəsində özləri haqqında bir mif yaratmışdılar... Gürcüstan ən azı abxaz və ya osetin mifini dağıtdı - hər ikisinin "lider"i dərhal Moskvaya qaçdı...

Aprel ayında biz də erməni mifini dağıtdıq... Amma tamam-kamal axırına çıxa bilmədik. Güman ki, Rusiya imkan vermədi. Həmin günlərdə Lavrovla bahəm Medvedev də burada göründü. Yəqin ki, elə-belə gəlməmişdi, V.Putinin "salam"ını, daha doğrusu, "privet"ini çatdırmağa gəlmişdi...

Olsun. Nə etmək olar? Bir az toparlanıb növbəti fürsəti gözləmək lazım gələcək. Hər fürsətdə Ermənistanın onurğa sümüyündən ən azı bir həlqəni qoparmağa çalışmalıyıq. Fürsət isə hələ çox olacaq...

Biz bir məsələni həll etməliyik - təmas xəttini mülki insanların yaşadığı ərazilərdən Qarabağın içərilərinə doğru çəkməliyik. Elə olsun ki, erməni səngərindən bizim mülki əhali yaşayan kəndlər və rayonlar atəşə tutula bilməsin. Bunun üçün ermənilər sadəcə, bir az qovmaq tələb olunur və güman edirik ki, bu, elə də çətin məsələ deyil...

Buna görə isə bir az da güclü olmalıyıq... Bəli, biz daha güclü ola bilərik.

Əslində olmalı idik də...



# Xarici siyasətimizin tualeti

Zamin HACI
zaminhaci@gmail.com

**Keçmiş MTN generalı Akif Çovdarovun Metro Tağını soyması boyunda yeni detal üzə çıxmışdır. Sən demə, 3 milyon manatı Çovdarova Tağı müəllim özü verməyibdir, Xarici İşlər Nazirliyimizdə çalışan oğlu Ruslan Əhmədov vasitəsilə göndərmişdir.**

Burada Ruslan müəllimin iş yeri çox maraqlıdır. Deməк, Tağı müəllimin oğlu dünyaya Azərbaycan həqiqətlərini yaymaqda ikən arada fasilə verib dədəsinin milli reketlərimizə ödədiyi pulları da çatdırırmış. Nə etməli, o boyda ağsaqqal adam yerin altından, YAP Yasamal rayon təşkilatından və AYB-dən çıxaraq əlində pul dolu diplomat küçədə gedəsi deyildi, bir diplomat pulu məhz diplomat çatdırsa yaxşıdır. Çünki diplomatik toxunulmazlığı vardır. Əgər Tağı müəllim pulu özü aparsa, başqa bir milli “Çovdarov” onu küçədə tutub soysa, bundan dövlətçiliyimizə hansı xeyir gələcəkdi? Belə halları ölkəmizdə çox görmüşük. Məhkəmələrimiz küçədə bir-birini soyan reketlərin şikayətlərinə baxmaqdan boğaza yığılıbdır. Bu şikayətçilər və reketlər arasında hətta məhkəmə hakimlərinin özlərinə də rast gəlinməkdədir. Söz vaxtına çəkər, keçən il elə bu vaxt həmin hakimlərdən biri Həsən Əliyevə 7 il həbs cəzası verildi. Həsən müəllim bir nəfərdən 600 min manat pul almış, ancaq onu söz verdiyi icra hakimi işinə qoya bilməmişdi. Pulu almısansa, gərək icra hakimi vəzifəsini də verəsən - bizdə sabitliyin qarantiyası budur.

Ancaq hər halda, Tağı müəllimdən alınan 3 milyonun yanında Həsən müəllimin aldığı 600 min az idi. Fikrimcə, bu işdə diplomatik korpusun iştirakı projeni bahalı etmişdir. Tağı müəllim düşünüb ki, pulu verməsə oğlu xaricə Azərbaycan həqiqətlərini daşımağa həsrət qalar. Bəlkə də o 3 milyonun elə 600 mini Çovdarova çatıb, qalanları Azərbaycan həqiqətlərinə xərclənib? Nə biləsən... İstintaq davam edir, bu kimi suallara da aydınlıq gətiriləcəkdir.

Korpus demişkən... Dünən Britaniyanın ölkəmizdəki səfiri İrfan Zındıq intervü verib, Azərbaycanın ərazi bütövlüyünü aşkar şəkildə pozmuşdur. Deyir ermənilər düz edir sizdən qorxur, əgər Qarabağ ətrafındakı əraziləri boşaltsalar, sizdən onlara təhlükə gələr-filan... Biabırçı bir intervüdür. Azərbaycan XİN-in, ümumən yapistlərin tərifli xarici siyasətinin necə bərbad olmasının növbəti isbatıdır. Hələ bu guya nisbətən yaxşı münasibət qurduqları Britaniyanın mövqeyidir. Londona yatırılan milyonlar, Bleyerə verilən rüşvətlər, lordlara axıdılan kürülər, TEAS-meas, nə bilim, nə... Hətta bizim varlılar arasında uşaqları da Britaniyada dünyaya gətirmək bir ara dəbdə idi. Bu da axırı. Britaniya səfiri Bakının göbəyində üzümüzə söysə bundan yaxşı idi. Mən eyni durumu İrəvanda təsəvvür eləməyə çalışdım: Britaniyanın Ermənistandakı səfiri orda Azərbaycanın mövqeyini müdafiə edən çıxış yapsa ermənilərin münasibəti necə olardı? Yəqin onu it peşmanı edərdilər. Bizdə isə Britaniya səfiri ağzına gələni rahatca danışır, hələ üstəlik, deyir kabablarınız, dana basdırmanız üçün darıxacağam. Məlum olur bu adam 3 il ərzində yeyib-içməkdən başqa “Azərbaycan həqiqətləri” ilə tanış edilməyibdir.

Əlbəttə, əcəb edirlər. Malını yeməyənin malını yeyərlər, sonra da tualetə gedərlər. Tualet demişkən, diplomatiyamızın əsas uğuru Beyləqanda yaşanmışdır. Dünən Yaponiya səfiri orda Beyləqan icra hakimi ilə birgə yeni məktəb tualetinin qırmızı lentini kəsmişdir. Sən demə, tualetin tikintisinə Yaponiya hökuməti sponsorluq edibdir. Qloballaşma budur: biz Pakistanda məktəb tikirik, yaponlar Beyləqanda məktəbə tualet tikir, Britaniya səfiri isə bunların hamısının içinə Bakıda oturur. Ancaq vətəndaşlarımızın tualetə bu qədər diqqəti lağa qoyması anlaşılmır. *(Elə bil tualetə “mədəniyyət evi” deyən biz deyilik).* Hamı ironiya edir ki, icra başçısı tualetin lentini kəsib. Yoldaşlar, məktəb tualeti, ümumiyyətlə, tualetlər son illər lenti kəsilən bir çox obyektlərdən min dəfə önəmli yerlərdir. İkincisi, bunu yazanlar, görünür, Yaponiyanın qədim tualet mədəniyyətindən xəbərsizdir. Tarixdə ilk ictimai tualeti də açan yaponlar olub. İndinin özündə Yaponiya şəhərlərində elə bəzəkli-düzəkli, orijinal arxitekturaya malik ictimai tualetlər var ki, qıraqdan baxsan heç ağlına gəlməz bura tualetdir. Elə bilərsən rayon diaqnostika mərkəzi, yaxud imperator Həşimotonun muzeyi, yaxud gənclər evidir. Hələ unitazlara quraşdırılan texniki elektron qurğuların min cür funksiyasını demirəm.

# İşğalçını bitirəcək savaş sifarişi, “müharibə bitməyib” ismarışı




# "Formula-1"dən sonrakı müharibə formulu - "Qum saatı" işə düşüb

## Bakıdakı beynəlxalq yarışma Ermənistana düşünmək üçün axırıncı fürsətdir; bu gün bir ayı tamamlanan aprel atəşkəsi Azərbaycan ordusunun işğal altındakı ərazilərə qəti və son yürüşü ilə pozula bilər; “Ermənilər heç vaxt indiki qədər zəif olmayıb”...

**Bu gün Moskvada əldə olunan 5 aprel atəşkəsinin bir ayı tamam olur. Qarabağ münaqişəsi zonasında 4 günlük savaşın bitməsinə gətirən bu anlaşma əslində Rusiyanın vasitəsilə Ermənistanı qat-qat ağır məğlubiyyətdən xilas eləmiş oldu. Eyni zamanda 22 ildir konflikt ətrafında mövcud olmuş və daima ermənilərin manipulyasiya elədiyi status-kvonu dəyişdi.**

Məsələ də ondadır ki, beynəlxalq birlik, o sırada ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri bu reallığı qəbul eləsə də, rəsmi İrəvan bundan israrla qaçır və sanki heç nə baş verməyibmiş kimi ənənəvi radikal, qeyri-konstruktiv mövqe sərgiləməkdə davam edir.

Bu harasıdır, üstəlik, danışıqlar masası arxasına qayıtmaq üçün absurd və gülməli şərtlər irəli sürür, separatçı rejimi tanıyacağı ilə hədələyir. Halbuki şərtləri artıq o yox, Azərbaycan diktə eləmək haqqına sahibdir. Həm də o səbəbə ki, prezident İlham Əliyevin dediyi kimi, sonuncu atəşkəsə məhz Ermənistanın yalvarışı ilə gedilib.

***

Əfsus ki, 5 aprel atəşkəsindən keçən bir ay işğalçı tərəfin ciddi götür-qoy edib praqmatik qərar verməsi, güzəştli mövqe tutması üçün kifayət eləməyib. Buna itirilmiş çox qiymətli bir ay, yaxud fürsət də demək olar - öncəliklə də Ermənistan üçün. Çünki əksər yerli və xarici analitiklər xəbərdarlıq ediblər ki, əgər 4 günlük müharibədən sonrakı uzağı iki ay ərzində Ermənistan işğal altındakı ərazilərin heç olmasa, bir qismini boşaltmaq niyyətində olduğunu ortaya qoymasa, müharibə bu dəfə daha geniş miqyasda alovlana bilər.

Onu da unutmaq olmaz ki, yay mövsümü bir qayda olaraq, hərbi əməliyyatlar üçün əlverişli sayılır və Azərbaycan çətin ki, bu fürsəti qaçırsın. Bakının xeyrinə işləyən daha bir məqam odur ki, bu dəfə beynəlxalq ictimaiyyət, hətta Rusiyanın özü heç bir kompromisi yaxına buraxmayan, danışıqlar prosesindən imtina edən Ermənistana qarşı Azərbaycanın yeni cəza əməliyyatını daha sakit və daha anlaşıqlı qarşılayacaq.

Bir sözlə, müharibə sifarişi olacaqsa da, onu məhz Ermənistan edəcək, çünki işğalçı ölkə kimi, ilk güzəştə o getməlidir. Və ya buna hazır olduğunu rəsmən bəyan eləməlidir. “Qum saatı” artıq işə salınıb, iki ayın biri arxadadır. Növbəti bir ayın tamamı iyunun əvvəllərinə təsadüf edəcək. Ondan az sonra - iyunun 17-19-da Bakıda “Formula-1" beynəlxalq yarışı keçiriləcək. Bu da olsun sonuncu fürsət. Ondan sonra yeni müharibə üçün heç bir siyasi əngəl qalmayacaq, əgər İrəvan indiki destruktiv mövqeyinə davam edəcəksə...

Azərbaycan prezidentinin cəbhə bölgəsinə son səfəri ən əvvəl bu kontekstdə düşmənə ünvanlanmış xəbərdarlıq ismarışı idi. Ölkə başçısı, Ali Baş Komandan düşmənlə təmas xəttinin 200 metrliyindən onu da bəyan elədi ki, müharibə hələ bitməyib. Bu, o deməkdir ki, savaş seçimi yenə işğalçıya məxsusdur - əgər o, daha acınacaqlı durumla üzləşmək istəmirsə, siyasi oyunbazlıqdan əl götürüb, işğalçı qüvvələrini Azərbaycan torpaqlarından təcili çəkməlidir.

***

Bir sıra təhlilçilər isə Bakıya işğalçının nazı ilə çox oynamamağı, təcavüzkarın özünü toparlaması üçün ona şans tanımamağı tövsiyə edirlər. Çünki hesab edilir ki, indi Ermənistanın ən zəif vaxtıdır və əlverişli durumu nəzərə alıb, onu güc amili hesabına gecikmədən sülhə məcbur eləmək lazımdır, nəinki zəif tərəfə vaxt qazandırmaq.

**“Bir 22 il də növbəti siyasi danışıqlar raundunu gözləmək yalnız ermənilərin hansısa şəraitdə gücünü artırmasına və yeni faciələrə yol açmasına şərait yaratmaq demək olardı. Ermənilərin yaşadıqları bu durumda Azərbaycanın növbəti addımları mütləq olmalıdır”. Bu sözləri axar.az-a açıqlamasında deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc deyib.**

**Deputat iki tendensiyanın reallığından söz açıb:** “Birincisi, erməni tərəfi hərbi məğlubiyyəti siyasi, psixoloji, diplomatik olaraq çox ağır yaşayır. Müxtəlif revanş zərbələri üçün hazırlıqlar görülür. Bu, əlbəttə ki, onları növbəti tələlərə salacaq. Yəni ermənilər hər an Tərtərə, yaxud başqa hərbi, mülki hədəflərimizə yönəlik təxribatlar törədə bilərlər. Bu halda Azərbaycanın zərbəsi 4 günlük müharibədəkindən tam fərqlənəcək. İkincisi, Rusiyanın son addımlarını dəyərləndiririk ki, məhz onların təşəbbüsü ilə tərəflər silahlı qarşıdurmadan geri çəkiliblər. Ancaq indi hərbi, siyasi cəhətdən ən əlverişli dövrdür. Ermənilər heç vaxt indiki qədər zəif olmayıblar. Bu, onların siyasi müttəfiqsiz durumundan daha qabarıq görünür. İqtisadi vəziyyətlərinin acınacaqlı olması isə bizim imkanlarımız və atacağımız addımların əsası kimi çıxış edir”.

**Z.Orucun sözlərinə görə, bir döyüşü uduzmaları yetərlidir ki, ermənilər nəinki Qarabağı, Ermənistanı itirəcəkləri şoku ilə üz-üzə qalsınlar:** “Ermənilərin yaşadığı və bundan sonra üzləşəcəyi real mənzərə budur. Ona görə də hazırkı şəraiti həm hərbi, həm də siyasi cəhətdən dəyərləndirən ölkə başçısıdır. Nəzərə almalıyıq ki, düşmən müxtəlif ölkələrin peyk rabitəsindən ərazilərimizə, xüsusilə də əsgərlərimizin dayandığı nöqtələrə nəzarət edir. Lakin Azərbaycan gözlənilməz yerdən və gözlənilməz zamanda addımlar atacaq. Bütün bunlar onu deməyə əsas verir ki, müharibə qaçılmazdır”.

***

Bir çox yerli və xarici analitiklər də bu qaçılmazlığı tez-tez vurğulamaqdadırlar. Əsasən də onlar bunu Ermənistan hakimiyyəti və toplumuna illərdir hakim kəsilmiş radikal ovqat və 5 apreldən sonra da dəyişməyə meylli olmayan qeyri-konstruktiv mövqe əsasında söyləyirlər. Deməli, Azərbaycan ordusunun daha bir uğurlu, həlledici həmləsinə ehtiyac var.

❑ **Analitik xidmət**

# Azərbaycan ordusu yeni hərbi təlimlərə başladı

## Düşmən ölkədə isə erməniləri sakitləşdirmək üçün "Rusiyanın ən yaxşı hərbi texnikası 80-ci illərdə buraxılan texnikadır" deyirlər; politoloq: "Ermənistan status-kvonu uzatmağa çalışır..."

**Aprel əməliyyatlarındakı itkilərdən özünə gələ bilməyən, faktiki olaraq aqoniya vəziyyətində olan işğalçı ölkə indi də Azərbaycanı Dağlıq Qarabağın "müstəqilliyi"ni tanıyacağı ilə təhdid edir. Bu gün - mayın 5-də müvafiq qanun layihəsinə Ermənistan parlamentində baxılacaq. Lakin ermənilər başa düşür ki, Dağlıq Qarabağı müstəqil subyekt kimi tanıması İrəvana baha başa gələ bilər.**

"Dağlıq Qarabağ Respublikası"na dair məsələnin Ermənistan hökumətinin gündəliyinə daxil edilməsi heç də onun "müstəqilliyinin" tanınması demək deyil. Bunu Ermənistan XİN rəhbərinin müavini Şavarş Köçəryan bildirib. "DQR"in müstəqilliyini tanıması, yaxud özünə birləşdirməsi halında Ermənistan Azərbaycan üçün yeni qapı açacaq". Bu açıqlama ilə isə MDB ölkələri üzrə Institutun Ermənistan filialının direktoru, politoloq Aleksandr Markarov çıxış edib (avropa.info). "Ermənistan "DQR"in müstəqilliyini o zaman tanıya bilər ki, tamamilə başqa yolu qalmasın. Bu halda Azərbaycan danışıqlar prosesindən çıxacaq. ATƏT-in Minsk Qrupu nizamlama mandatından məhrum olacaq" - Markarov əlavə edib.

Rəsmi Bakı isə özünün prinsipial mövqeyindən geri çəkilmək niyyətində deyil. "Nə qədər ki, Azərbaycanın işğal olunmuş torpaqları qaytarılmayıb, işğalçı erməni ordusu Azərbaycanın ərazilərini tərk etməyib, sülh sazişinə nail olunmayıb, cəbhə bölgəsində gərginlik biz istəsək də, istəməsək də davam edəcək". Bunu ötən gün **Azərbaycan prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov** Region TV-yə açıqlamasında bildirib.

**Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu da konkret mövqe nümayişi ilə növbəti dəfə diqqəti cəlb edib. O, "Qovorit Moskva" radiosuna müsahibəsində deyib ki, əgər "DQR"in müstəqilliyi Ermənistan tərəfindən tanınsa, o zaman beynəlxalq hüququn bütün prinsipləri pozulmuş olacaq. Səfir Moskvanın məsələyə münasibət bildirməsini istəyib (APA).** "Bu, ATƏT-in Minsk Qrupunun çoxsaylı təkliflərinin üstündən də xətt çəkəcək. Hesab edirəm ki, bütün həmsədr ölkələr, o cümlədən Rusiya bu məsələ ilə bağlı mövqeyini bildirməlidir" - P.Bülbüloğlu deyib. Səfir bu məsuliyyətsiz qərarın nəticələrinə görə bütün məsuliyyətin Ermənistan rəhbərliyinin üzərinə düşəcəyini söyləyib.

**Lakin görünən budur ki, Ermənistan konstruktiv mövqe nümayiş etdirməkdən uzaqdır. Düşmən ölkə Rusiyadan alacağı silah-sursata ümid edərək Azərbaycana zərbə vurmaq istəyir.** "Mövcud kredit razılaşması əsasında Rusiyadan Ermənistana silah göndərilməsi prosesi artıq başlayıb",- deyə Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Arsrun Ovannisyan deyib. **O, dövlət maraqları ilə bağlı olduğu üçün silahların çatdırılma müddəti və təchizat məsələləri ilə əlaqədar açıqlama verməyib. Bununla yanaşı, qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin yeni silahlarla təchizatı təkcə Rusiya kreditləri hesabına deyil:** "Kredit olmadan da böyük partiya silah almışıq". A. Ovannisyan təşvişdə olan erməniləri sakitləşdirmək üçün deyib ki, Rusiyanın ən yaxşı hərbi texnikası 80-ci illərdə buraxılan texnikadır.

***

Azərbaycan isə düşmən ölkəni heyrətləndirəcək növbəti addım atıb. Belə ki, müdafiə nazirinin təsdiq etdiyi hazırlıq planına əsasən Raket və Artilleriya Qoşunlarının təlimləri başlayıb. Təlimlərdə Rusiyadan alınaraq ölkəmizə gətirilən və qoşunların silahlanmasına yeni daxil olan "Msta S" özüyeriyən haubitsaların praktiki istifadəsi şəxsi heyət tərəfindən həyata keçirilir. Döyüş vəziyyətinə uyğun səhra şəraitində keçirilən təlimlərdə yüksək dağıdıcı qüvvəyə malik artilleriya sistemlərinin döyüş atışı vəziyyətinə gətirilməsi, digər qoşun növləri ilə uzlaşmada effektiv tətbiqi və hərbi elementlərin praktiki icrası təkmilləşdirilir.



Üstəlik, Rusiyadan Azərbaycana yeni hərbi texnikanın gətirildiyi haqda xəbərlər yayılıb. Virtualaz.org-a rəsmi mənbələrdən daxil olan məlumatda bildirilir ki, bu, Bakı ilə Moskva arasında əldə olunmuş razılığa əsasən həyata keçirilir. Həmin razılaşmaya görə, Azərbaycana BMP-3-ün bazası əsasında hazırlanmış "Vena" adlı 120 mm-lik özüyeriyən artilleriya qurğuları və BTR-80-in bazası əsasında yenilənmiş və ən müasir döyüş avadanlıqları ilə təchiz olunmuş BTR-82A maşınları göndərilir.

***

**Politoloq Arzu Nağıyev düşmən ölkədə müşahidə olunan aqoniya vəziyyətini "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, aprel məğlubiyyətindən sonra Ermənistanda hakimiyyət uğrunda mübarizə güclənib:** "İlk öncə Sərkisyan məğlubiyyəti kiminsə ayağına yazmağa çalışdı. Hətta Ter-Petrosyanla görüşməklə Köçəryana qarşı addım atdı və qondarma bir terror aktı da təşkil etdirdi. Bundan sonra qondarma qurumun rəhbəri Bako Saakyanı üzə çıxarmağa başladı və bununla Qarabağ klanının ömrünü uzatmağa cəhd etdi. Ən real namizəd kimi isə Ohanyanı saxladı və bir neçə generalı istefaya göndərməklə bir az parçalanma gedir, bu mübarizə rusiyayönümlü Qarabağ klanı ilə qərbyönümlülər arasında gedən mübarizəyə daha çox bənzəyir. Ən başlıcası isə odur ki, hazırki hakimiyyət münaqişənin həllinin uzadılmasını daha çox istəyir və bununla da öz hakimiyyətlərini saxlamağa çalışır. Havadarları da yəqin ki, "əvəzedici" heyəti hazırlamaqla məşğuldur. Qərbyönümlülərə gəldikdə, onlar münaqişənin daha tez həll olunmasında maraqlıdırlar və bu istiqamətdə müəyyən hərəkətlər etməyə, siyasi sakitlik yaratmağa nail oldu. Maraqlısı odur ki, Sərkisyan özünün deyə bilmədiklərini digər məmurlar vasitəsilə ifadə etməyə üstünlük verir. Bu, Nalbəndyanın danışıqlarla bağlı bəyanatlarında da, Ohanyanın Moskvadakı çıxışında da göründü. Metsamor Atom Stansiyasının sökülməsinə görə daha çox vəsait əldə etmək üçün hətta sabiq baş nazir Qrant Baqratyanın atom bombası ilə bağlı cəfəng bəyanatının da şahidi olduq". **Politoloq sonuncu məqama xüsusi diqqət çəkməyi zəruri sayır:** "Təsəvvür edin ki, İraq və İranı belə bəyanatlara görə embarqoya məruz qoyan dünya supergücləri bu bəyanatla bağlı hələlik susqunluq nümayiş etdirirlər".

**A.Nağıyev qeyd etdi ki, bugünlərdə Ermənistan parlamentinin vitse-spikeri, iqtidarda olan Ermənistan Respublika Partiyasının önəmli funksionerlərindən biri Ermine Nağdalyanın bəyanatı şok effekti verdi:** "Heç təsəvvür ediləsi də deyildi ki, nə vaxtsa iqtidar partiyasının nümayəndəsi "hazırda nəzarətimizdə olan, əlimizə keçirdiyimiz torpaqları nə zamansa azad etməli, oradan çəkilməliyik. Reallığı anlamaq gərəkdir" kimi bəyanatla çıxış edəcək. Deməli, artıq hakimiyyətdə addımlar atmağa başlayıblar. Bir sözlə, yəqin ki, siyasi arenada olanların davamında daha kəskin qalmaqalların şahidi olacağıq".

**İrəvanın Dağlıq Qarabağı müstəqil subyekt kimi tanıması ilə bağlı təşəbbüslərə gəldikdə, politoloq bunları söylədi:** "Birincisi, Azərbaycanın beynəlxalq normalara uyğun olaraq BMT tərəfindən tanınan sərhədləri var və Dağlıq Qarabağ ərazisi də bu sərhədlər içindədir. Yəni ermənilərin atacağı addım birbaşa bütün beynəlxalq hüquq normalarına ziddir. Digər tərəfdən, tanınsa belə, yəqin ki, bu qurumu Ermənistan və ən uzağı, özü kimi bir neçə qurum tanıya bilər. Lakin bununla nə dəyişə bilər ki? Burada əsas məqsəd Rusiya tərəfindən Dondas, Abxaziya, Cənubi Osetiya mexanizminin qabardılmasıdır və məqsəd də qondarma qurumu tərəf kimi danışıqlara cəlb etməkdir. Bu isə ATƏT-in Minsk Qrupunun ləğvinə gətirib çıxarar və BMT-nin mandatının yararsızlığını ortaya qoyar. Ümumən götürəndə isə Ermənistan bununla status-kvonu uzatmaq, eyni zamanda Sərkisyan öz cavabdehliyini və məsuliyyətini azaltmağa çalışır".

❑ Elşad PAŞSOY

# Savaş başlasa, Türkiyə ordusu Azərbaycana çağırıla bilərmi?

## İqbal Ağazadə: "Bu, bölgədə yeni bir dünya savaşına gətirib çıxara bilər"



İqbal Ağazadə



Üzeyir Cəfərov

**Qarabağ cəbhəsində son 4 günlük hərbi əməliyyatlarda Ermənistan ordusu daha çox Azərbaycanın mülki əhalisini hədəfə aldı. Ekspertlər hərbi toqquşmaların yenidən başlayacağı, hətta bunun müharibəyə çevriləcəyi ehtimalını istisna etmirlər. Bəs görəsən, daim işğalçı Ermənistan dövlətinin arxasında olan Rusiyaya qarşı Azərbaycan hansı dövlətdən kömək istəyə bilər? İkinci Qarabağ müharibəsi başlasa, ordumuzun xarici üçüncü ölkənin dəstəyinə ehtiyacı olacaqmı? Azərbaycanın strateji tərəfdaşı olan, qardaş Türkiyənin ordusu cəbhə xəttinə çağırıla bilərmi?**

"Yeni Müsavat" qəzeti olaraq biz də cəmiyyəti maraqlandıran bu suallara cavab tapmağa çalışdıq.

**Ümid Partiyasının sədri İqbal Ağazadə** həm müharibənin başlaması ehtimalını, həm də buraya Rusiya, Türkiyə kimi üçüncü ölkələrin açıq şəkildə qatılması ehtimalını istisna edib: "Müharibə heç vaxt başlamayacaq. Hazırda olduğu kimi mövqe döyüşləri gedə bilər. Ancaq müharibənin olmaq imkanı sıfıra bərabərdir. İkincisi, Azərbaycan da, Türkiyə də hüquqi baxımdan müstəqil dövlətdir. Türkiyə NATO-nun üzvü olsa belə, Azərbaycan müraciət edərsə, bu müraciəti Türkiyə, eləcə də istənilən dövlət müsbət dəyərləndirə bilər. Ancaq bu, bölgədə yeni bir dünya savaşına gətirib çıxara bilər. Ona görə də hər kəs tərəddüd edər və bu məsələdə heç bir ölkə açıq mövqe nümayiş etdirməz. Bu baxımdan, hesab edirəm ki, həm müharibənin başlaması, həm də Rusiyanın iştirak etməsi ehtimalı yoxdur".

**İ.Ağazadə bildirib ki, əgər Rusiya Ermənistan tərəfindən müharibədə iştirak etsə, Azərbaycanın tərəfindən vuruşmaq istəyən qüvvələr də tapılacaq:** "Silahını satmaq istəyən çox tərəflər var. Həmçinin Rusiya ilə münasibətləri elə də xoş olmayan tərəflər də var. Ancaq heç kim açıq şəkildə döyüşə girmək istədiyini bəyan etməz".

**Hərbi ekspert Üzeyir Cəfərov isə "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, Azərbaycanın öz torpaqlarında antiterror əməliyyatları keçirməsi onun haqqıdır və buna heç bir ölkə açıq şəkildə müdaxilə edə bilməz:** "Rusiya məsələsi bizim yolumuzda çox böyük bir əngələ çevrilib. Dağlıq Qarabağ məsələsində hər hansı canlanma yaranan kimi hamı düşünür ki, görəsən, Rusiyanın münasibəti necə olacaq. Əgər beynəlxalq hüquqla tanınan əlaqələrdə Ermənistanla bağlı hər hansı problem olarsa, o zaman Rusiya nə isə deyə bilər. Ancaq söhbət Azərbaycanın beynəlxalq miqyasda BMT-nin 4 qətnaməsi ilə tanınan torpaqlarından gedir. Düzdür, orada Ermənistan silahlı qüvvələrinin əsgər və zabitləri xidmət edir. Amma onların statusu var və bu status işğalçıdır. Azərbaycan antiterror əməliyyatları çərçivəsində öz ərazilərini terroristlərdən, o cümlədən separatçılardan təmizləmə əməliyyatına başlasa, Rusiyanın buna qarışmaq ehtimalı demək olar ki, yoxdur. Artıq Rusiya 1990-cı ildə olduğu kimi Qarabağ ərazisinə daxil ola bilməz. Çünki bu, Rusiyanın onsuz da ağır olan vəziyyətini bir qədər də ağırlaşdırar. Ola bilər ki, Rusiya vətəndaşları olan ermənilər vuruşsun. Ancaq Rusiya bunun da qarşısını almalıdır.

Ancaq o da faktdır ki, Rusiya bu proseslərin içində var. Düşünmürəm ki, hərbi əməliyyatlar təkrar başlasa, Azərbaycan Türkiyəyə müraciət edəcək. Çünki bizim cəbhə bölgəsində olan canlı qüvvəmiz, hərbi texnikamız, ehtiyat resurslarımız kifayət edir ki, ordumuz qısa bir müddətdə, hətta bir neçə günə torpaqlarımızı azad eləsin".

**Ü.Cəfərov son 4 günlük toqquşmada KTMT-yə daxil olan ölkələrdən heç birinin Ermənistanı dəstəkləmədiyini diqqətə çatdırdı:** "Rusiya son 4 günlük hərbi əməliyyatlara diplomatik şəkildə müdaxilə elədi. Onlar Azərbaycandan xahiş etdilər ki, atışma dayandırılsın. Ancaq sonradan Rusiya bizim mülki əhalinin ermənilər tərəfindən atəşə tutulduğunu görəndən sonra susdu. Mən əminliklə deyə bilərəm ki, Qarabağda müharibə qaçılmazdır. Ancaq son toqquşmanı müharibə adlandırmaq da doğru olmaz. Bunlar, sadəcə, hərbi əməliyyatlardır, ordumuzun düşmənə verdiyi cavabdır. Bu döyüşlərdə bizim silahlı qüvvələrimiz yox, sadəcə, bir briqada iştirak edib.

Aprelin əvvəlindəki döyüşlərdə özünüz də gördünüz ki, ermənilərin indiyədək ümid etdikləri Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatından onlara heç kim kömək etmədi. Nə Qazaxıstan, nə Belarusiya Ermənistana dəstək olmadı. Yeganə diplomatik dəstək Rusiyadan gəldi ki, onların xahişindən sonra hücumlar dayandırıldı".

❑ Nərgiz LİFTİYEVA

**1996**-cı il mayın 3-də təsis qurultayını keçirən Azəri-Türk Qadınlar Birliyi son 20 ildə türk dünyası ilə bağlı önəmli proyektlərə imza atıb. Tənzilə Rüstəmxanlının rəhbərlik etdiyi təşkilatın dünyanın bir çox ölkəsində nümayəndəlikləri var. Hər il Türkiyədə ənənə halında qeyd olunan Xocalı həftəsinin, Azərbaycanda Nuru Paşa ilə bağlı ilk konfransın, 3 may Türkçülük Günü ilə bağlı böyük Şölənin, Kərkük, Təbriz gecələrinin və Türk Dünyasının təbliği ilə bağlı digər mühüm tədbirlərin keçirilməsi məhz Tənzilə Rüstəmxanlının rəhbərlik etdiyi Azəri-Türk Qadınlar Birliyinin adı ilə bağlıdır.

# "Bizim işlərimiz onlarla kitaba mövzu ola bilər"

## Azəri-Türk Qadınlar Birliyi 20 illik yubileyini qeyd etdi; **Tənzilə Rüstəmxanlı:** "Birinci Qarabağ savaşında yaşadığım kədəri indi qələbə sevinci əvəz elədi"

"Yeni Müsavat" qəzeti olaraq, yubiley yaşını qeyd edən təşkilatın Azərbaycan və ümumilikdə türk dünyası üçün gördüyü işlərlə bağlı məlumat almaq üçün birliyin sədri Tənzilə Rüstəmxanlının təəssüratlarını öyrənməyə çalışdıq. O bildirdi ki, təşkilat yaradıldığı zaman qarşıya qoyduğumuz məqsəd, müstəqil Azərbaycan dövlətinin inkişafı və möhkəmlənməsi işində qadınlarımızın daha fəal iştirakına nail olmaq, türkçülük ideyalarının yayılması, özünüdərk və milli kimliyimizin təbliği idi.

**Tənzilə Rüstəmxanlı ötən 20 ilin onun üçün həm uğurlu, həm də keşməkeşli olduğunu vurğuladı:** "Bizim bu 20 ildə gördüyümüz işlərin bir çoxu cəmiyyətə məlumdur. Əlimizdən gəldiyi qədər ölkəmizə, böyük türk dünyasına xidmət etməyə çalışmışıq. Ona görə də Azərbaycanın problemlərini türk dünyasına çatdırmağa çalışmışıq. Bu cəmiyyətin qurulmasının səbəbi elə Qarabağ problemi ilə bağlı olub. İlk dəfə bu cəmiyyəti qurma ideyası 1995-cı ildə Sabir bəylə bizim Kanadaya səfərimizdə yarandı. Biz oradakı bir neçə təşkilatla görüşdük. Gördük ki, ölkəmiz haqqında heç nə bilmirlər. Azərbaycanı, Qarabağı ümumiyyətlə tanımırlar. Mən onlara öz qaçqın düşən qadınlarımızdan danışanda onlar dedilər ki, biz daha çox erməni qaçqınlarını tanıyırıq. Onlar Azərbaycandan qaçıb gəlib. Bütün bu məsələlərdən sonra qərara aldım ki, mütləq bir qadın cəmiyyəti qurmaq lazımdır və Azərbaycanın haqq davasını əlimizin çatdığı yerə qədər çatdıra bilək".

**T.Rüstəmxanlı qeyd etdi ki, təşkilatın adı qadın təşkilatı olsa da, qadınların problemləri ilə yanaşı, daha çox ölkəmizin problemləri gündəmindədir:** "Tez-tez tədbirlər, elmi konfranslar keçiririk, türk dünyasının ortaq məsələlərini, problemlərini daha çox müzakirə edirik. Ötən 3 may Türkçülük Günü Azəri-Türk Qadınlar Birliyinin təntənəli şəkildə keçirərək, Azərbaycan cəmiyyətinə möhürlədiyi bir əsəridir. Biz bu günü böyük bir türk şölənınə çevirməyi bacarmışıq. Türk dünyasının bir çox yerlərindən buraya dəyərli sənət adamlarını, elm adamlarını dəvət eləmişik. Amacımız Azərbaycanın milli məsələsi olan Qarabağı və Xocalı soyqırımını onlara tanıtmaq olub. Kənardan necə göründüyünü bilmirəm. lakin təvazökarlıqdan uzaq olmasın, bu 20 ildə bizim işlərimiz, keçirdiyimiz konfranslar onlarla kitaba mövzu ola bilər".




**Azəri-Türk Qadınlar Birliyinin sədri yubiley ərəfəsində Qarabağ bölgəsinə səfərindən və cəbhə xəttində əsgərlərimizlə keçirdiyi görüşlərdən danışdı, təəssüratlarını "Yeni Müsavat"la bölüşdü:** "Mən birinci Qarabağ savaşında da cəbhə bölgəsinə gedirdim. Mən Azər-Türk Bankda işlədiyim üçün oradakı əsgərlərimizin, vətəndaşlarımızın yemək- geyim təminatından sorumlu idim. Həm də bir könüllü vətəndaş kimi bu məsələdə həssas idim. Həm də özümüz o bölgələrdən köçsək də, mənim qohumlarım var idi. Bu vətən məsələsi mənim də yaralı yerimdir. Bu həssaslıq məni oraya aparırdı. Azərbaycanın müstəqilliyinin qazanılması bizim gözlərimizin önündə olmuşdu. Biz bu məsələlərdə yaxından iştirak etmişdik. Ona görə də daha çox təsir edirdi bu savaş bizə. Azərbaycanın bölgələrini qarış-qarış gəzmişəm. Bu günə qədər də oradakı komandir və əsgərlərlə münasibətlərim qalıb. Mən o acı savaşın şahidi olmuşam, torpaqlarımızın əlimizdən getməsinin ağrısını yaşamışam. Bu dəfə də mən torpaqlarımıza baş çəkdim. Türkiyənin "Bəngi Türk" televiziyasının rəhbərliyi ilə xeyli vaxtdır bu mövzuda yazışırdıq ki, gəlib bizim cəbhə bölgəsində çəkiliş aparsınlar. Sonra onlar buraya gəldilər və mən də onlarla bərabər o bölgələrə getdim. 24-25 ildən sonra mənim o bölgələrə ilk dəfə gedişim çox qəribə bir duyğu idi. Köhnə tanışlarımla görüşdüm, kənddə erməni raketlərinin zərbələri ilə dağıdılmış evləri gördüm. Düşməndən təmizlənən təpələrin birində oldum, əsgərlərimizlə görüşdüm. Qələbə əzminin şahidi oldum. Öz təəssüratlarımı "Adım vətəndir, Qarabağ" adlı yazıda yazdım və bu, Türkiyə mətbuatında 3 gün ardıcıl şəkildə getdi".

**Cəmiyyətdə, eləcə də orduda vətənpərvərlik ruhunun, qələbə əzminin yüksək olduğunu deyən Tənzilə Rüstəmxanlı təşkilatın 20 illik fəaliyyətində də əsas məqsədin məhz bu olduğunu diqqətə çatdırdı:** "Birinci Qarabağ savaşında yaşadığım kədəri indi qələbə sevinci əvəz elədi. Ağdam alınanda mən oradan həmvətənlərimizin necə məcburi şəkildə köç etdiyini görmüşdümsə, indi də daha artıq sevinclə gənclərimizin düşməndən təmizlənmiş torpaqlara axın etdiyini gördüm. Strateji əhəmiyyəti olan bir təpənin əldə olunması, sadəcə, 25 illik bir untancı aradan qaldırdı. Mən sadəcə qürur hissi keçirdim. Bir qarış torpaq belə bizim üçün kutsaldır. Əsgərlərimizin bu cür qələbə əzmi varsa, bizim qarşımızda keçilməyəcək sədd yoxdur. Bizim də məqsədimiz illərdir bu vətənpərvərlik ruhunu aşılamaq üçün tədbirlər keçirmək, işlər görmək idi. Bu fəaliyyətimiz zamanı bəzən bizim işlərimizi ironiya ilə qarşılayırdılar, bəzən barmaqarası baxırdılar. Lakin bu millətin öz torpağına sahib olmaq üçün o pafoslu çıxışlara da, milli duyğuları millətin damarına basa-basa aşılamağa da çox ehtiyac var idi. Mən hiss etdim ki, biz məqsədimizə nail olmuşuq".

❑ **Nərgiz LİFTİYEVA**

# Vəkillər Əkrəm Əylislinin bəraət alması üçün çalışırlar...

## Yazıçının bəraət ala bilməsi üçün Avropa Məhkəməsinə müraciət edilməsi də istisna deyil...

**Martın 30-da ölkədən çıxarkən hava limanında saxlanılan yazıçı Əkrəm Əylislinin işi Bakı Şəhər Prokurorluğuna göndərilib. Bu barədə musavat.com-a onun vəkili Elçin Sadıqov məlumat verib. Yazıçı özü isə danışmaqdan imtina edib. Yazıçının bu işdə bəraət ala bilməsi üçün Avropa Məhkəməsinə müraciət edilməsi də istisna deyil.**

**Vəkil Elçin Sadıqov** musavat.com-a bildirib ki, iş ləng gedir: "İş Bakı Şəhər Prokurorluğuna göndərilib. İndiyədək bizimlə əlaqə saxlanılmayıb. Yaxın günlərdə cavab gələcəyinə ümid edirik. Biz bəraət gözləyirik, bəraət uğrunda çalışırıq. Əkrəm Əylisli heç kəsi vurmayıb. Ümumiyyətlə, onun fiziki durumu kimisə vurmağa, hətta xəsarət yetirəcək dərəcədə fiziki güc tətbiq etməyə imkan vermir. Hesab edirik ki, ittihamlar əsassız və saxtadır. Biz bəraət tələb edirik". **Vəkil qeyd edib ki, yazıçıya bəraət verilməsi Avropa Məhkəməsinə qədər gediləcək:** "Bu işlə bağlı Avropa Məhkəməsinə qədər gedəcəyik. Ölkə daxilində məsələ həllini tapmasa, hüquqi müstəvidə növbəti addımlarımız olacaq".

**Əkrəm Əylislinin özü isə danışmaq istəməyib. O, qısaca bildirib ki, məlum işlə bağlı**



**sualları vəkilə ünvanlamaq lazımdır:** "Vəkildən soruşun. Siz jurnalistlər sual verib adımı oynatmaq istəyirsiniz ki, nəsə dedim? Heç nə deməyəcəm".

Qeyd edək ki, yazıçı martın 30-da hava limanında saxlanılıb. O, 30 mart-2 aprel tarixdə İtaliyanın Venesiya şəhərində keçiriləcək ədəbiyyat festivalında iştirak etmək üçün səfərə gedirmiş. Daxili İşlər Nazirliyinin rəsmi açıqlamasında göstərilir ki, o, xuliqanlıq hərəkətlərinə yol verib və təyyarə havaya qalxandan bir neçə saat sonra aeroportun sərhəd xidmətinin əməkdaşına fiziki güc göstərib. Nəticədə sərhəd xidməti əməkdaşının bədənində qançır yerləri əmələ gəlib.

**Ə.Əylisli bu hadisədən sonra dövlət başçısı İlham Əliyevə açıq məktub yazaraq ona qarşı qaldırılan cinayət işi ilə bağlı istintaq prosesinə də diqqət çəkib.** "Son bir neçə ildə hər cür təhqir və məhrumiyyətlərə düçar edilən ailəmin, nəhayət, öz ölkəsində asudə yaşamaq imkanı əldə edəcəyinə inanmağa mənim çoxdan və çox böyük psixoloji ehtiyacım vardı. Amma heyif ki, reallıq bunun əksini göstərdi və mən özümə və ailəmə qarşı 3 il əvvəl başlanan kampaniyanın hələ davam etməkdə olduğuna bir daha inanmalı oldum",- deyə yazıçı məktubunda vurğulayıb.

**Qeyd edək ki, Ə.Əylislinin bir neçə il əvvəl yazdığı "Daş yuxular" romanı kəskin siyasi ittihamlara məruz qalmışdı. Yazıçı özü hesab edir ki, bu romandan dolayı ona hələ də təzyiqlər davam edir və ölkədən çıxışına imkan verilməməsi də məhz bu addımlardan biridir.** "İndi mən 79 yaşın içindəyəm. Mənim bundan sonra illərlə yox, bəlkə də aylar və günlərlə ölçüləcək qədər ömrüm qalır. İndi söz yox ki, məni yaradıcılığımdan və şəxsi həyatımdan daha çox, ailəmin və ata "günahı" ucbatından hələ də işsiz qalan günahsız övladlarımın gələcək taleyi düşündürür",- deyə yazıçı vurğulayıb. O qeyd edib ki, 3 ildən çoxdur təzyiqlər mühitində yaşayır: "Ən adi hüquqlarımın kobudcasına pozulmasının hər gün şahidi oluram".

❑ **RÖYA**



# Azərbaycan ordusu düşməni dilemma qarşısında qoyub

**Separatçı rejimin müstəqilliyinin tanınması müharibənin fitilinin daha tez çəkilməsinə gətirəcək, tanımamaq isə danışıqlar prosesinə İrəvanın zəif mövqe ilə qayıtması demək olacaq; rusiyalı ekspert: "Ermənistanın iki həftə vaxtı qalıb..."**

**Sabah** **işğalçı Ermənistanın hökuməti, ardınca isə qərar müsbət olarsa, ölkənin parlamenti Dağlıq Qarabağdakı separatçı rejimin müstəqilliyinin tanınması məsələsinə baxacaq. Belə bir təşəbbüslə "İrs" fraksiyasından olan radikal deputatlar çıxış edib.**

Yada salaq ki, indiyədək bir neçə dəfə belə analoji cəhdlər göstərilib. Lakin həm hökumətdə, həm də parlamentdə çoxluqda olan hakim Respublikaçılar Partiyası tanınma qərarına getməyib. Hakim çoxluğun rəyi belə olub ki, o halda Qarabağa dair danışıqların anlamı qalmayacaq və Azərbaycana müharibə üçün siqnal verilmiş olacaq. Bu isə Ermənistan üçün qat-qat ağır nəticələr vəd edir.

Azərbaycan qarşı tərəfi bu barədə artıq rəsmən xəbərdar edib. Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev bildirib ki, "tanınma danışıqlar prosesinin sonu, beynəlxalq birliyə və danışıqlar prosesinə hörmətsizlik" demək olacaq və bu qərarın nəticələrinə görə məsuliyyət bütünlüklə erməni tərəfinin üzərində qalacaq.

***

Lakin bir sıra ekspertlərə görə, budəfəki təşəbbüs də iflas olacaq. Hərgah, əvvəlki təşəbbüslərdən fərqli olaraq, indi Ermənistan rəhbərliyi qat-qat mürəkkəb vəziyyətdə, siyasi, radikal müxalifətin basqısı altındadır. Başqa sözlə desək, 4 günlük müharibədən sonra Sərkisyan rejimi daxildə ictimai-siyasi kəsimin təzyiqlərinə qarşı daha həssas bir duruma gəlib.

Yeri gəlmişkən, 4 günlük müharibənin gedişində S.Sərkisyan separatçı qurumun tanına biləcəyini istisna eləməmişdi. Lakin Azərbaycana ünvanlı hədə, emosiya başqa şeydir, soyuq məntiq - başqa. Məsələ ondadır ki, Kremlin izni olmadan tanınma Rusiya tərəfindən də neqativ qarşılanacaq. Çünki o halda Moskvanın Qarabağ məsələsindən öz maraqları naminə manipulyasiya etmək imkanları daralacaq. Rusiya çətin ki, buna İrəvana bağışlaya. Hətta tanınmış erməni analitiklərindən olan İqor Muradyanın yazdığına hörə, Rusiya aprel savaşından çox-çox əvvəl xəbərdarlıq edib ki, Ermənistan belə bir addıma getsə, böyük fəlakətlə üzləşəcək.

Əslinə qalsa, Azərbaycan prezidenti İlham Əliyevin ötən bazar cəbhə bölgəsinə getməsi də işğalçı tərəfə ciddi xəbərdarlıqdır ki, separatçı rejimi tanımaq kimi mənasız məşğuliyyətdənsə, nizamlama prosesində konstruktiv mövqe tutsun - əgər təbii ki, müharibə arzulamırsa.

***

Müharibənin alternativi isə sülh danışıqlarıdır. İşğalçı tərəf bunu nə qədər tez anlayıb konstruktiv mövqe tutsa, zəbt elədiyi Azərbaycan torpaqlarının geri qaytarılması haqda düşünsə, bir o qədər onun özü üçün yaxşı olar, bir o qədər Ermənistan adlı ölkənin təhlükəsizliyi qazanar.

"Azərbaycanın Qarabağda uğurlu hərbi əməliyyatları fonunda Serj Sərkisyanın danışıqlar prosesindən imtina barədə bəyanatına rəğmən, Ermənistan yaxın iki həftədə danışıqlar stolu arxasına əyləşməli olacaq". Musavat.com-un məlumatına görə, bu barədə **Rusiya xarici işlər nazirinin sabiq müavini, "Siyasi Tədqiqatlar Mərkləzi" Fondunun direktoru Andrey Filatov bildirib.**

Onun sözlərinə görə, İrəvanda başa düşürlər ki, hazırkı situasiya gec-tez ona gətirəcək ki, Moskva təzyiq eləməyə başlayacaq. Rusiyalı ekspertin fikrincə, xarici işlər naziri Sergey Lavrov az öncə İrəvana etdiyi səfər zamanı Ermənistana ən əsas şeyi aparıb: "Lavrov erməni tərəfindən təkidlə xahiş edib ki, danışıqlara başlasın, həmçinin, yeni insan itkilərinə gətirəcək növbəti hərbi qarşıdurmalara imkan verməsin. Və mən güman edirəm ki, 10-12 gün ərzində, 9 maydan sonra əlavə məsləhətləşmələr olacaq və yalnız bundan sonra danışıqlar prosesi işə düşəcək".

**Ekspert əmindir ki, Moskva İrəvanı danışıqlara məcbur edə bilər:** "Belə məcburetmə mexanizmləri isə çoxdur və Rusiya diplomatiyası artıq bunun üstündə işləyir. Sadəcə, vəziyyət indi elə gətirib ki, qarşıdan böyük bayramlar gəlir. Üstəlik, Rusiya prezidenti Vladimir Putinin hazırda çox sıx qrafiki var - Soçidə Yaponiyanın baş naziri ilə çox mürəkkəb danışıqlar olacaq. Olduqca sıx gündəlik tərtib edilib və Putin məcburdur onu öz üzərinə götürsün. Odur ki, mayın 9-10-dan sonra Ermənistanın mövqeyində tərpəniş müşahidə edəcəyik. Və mən sizi əmin edirəm ki, bu, mütləq olacaq. O sadə səbəbə ki, Rusiya daha neytral müşahidəçi vəziyyətində qala bilməz".

**Sabiq diplomat danışıqların Ermənistan daxilində neqativ qarşılanacağı barədə ekspertlərin dedikləri ilə tamamilə razıdır:** "Çünki bir var danışıqlara güc mövqeyindən gələsən, bir də var xarici təzyiq altında gedəsən - özü də yeri gəlmişkən, təkcə Moskvadan söhbət getmir. Məncə, İrəvan müəyyən izolyasiyaya düşə bilər, nədən ki, nə Moskvanın, nə də digərlərinin onu uzun müddət dilə tutmaq istəyi olmayacaq. Ermənistan üçün ən pis situasiya o olacaq ki, tək qalacaq. İrəvanın danışıqlardan imtinası ona gətirəcək ki, sülh prosesinin digər iştirakçıları, sadəcə, dözümlərini itirə bilərlər. Hamı başa düşür ki, danışıqların olmaması yeni qarşıdurmalar vəd edir. Ermənistanın danışıqlara hazır olmaması ümumən sülh prosesinin iştirakçısı olan dövlətlərin, o cümlədən Rusiyanın mövqeyinin dəyişməsi demək olacaq".




***

Öz növbəsində digər tanınmış rusiyalı politoloq Andrey Yepifançev hesab edir ki, Ermənistan Dağlıq Qarabağın müstəqilliyinin tanınması ilə bağlı qərar qəbul etməyəcək (axar.az). Onun sözlərinə görə, İrəvan nə qədər güclü, təhdidedici bəyanatlar səsləndirsə də, Qarabağla bağlı heç bir qərar verməyəcək.

"Səbəb sadədir. Ermənistanın danışıqlar masasında mövqeləri aprel ayından sonra xeyli pisləşdi. Hətta 20 il ərzində İrəvan və Stepanakertin *(Xankəndi - red.)* xeyrinə işləyən paradiqmanın dağıldığını da deyə bilərik. Xalq və elita açıq-aşkar həyəcanlanıb, amma buna rəğmən, hər kəs fərqli davranış tərzi nümayiş etdirir. Elitanın bir hissəsi anlayır ki, ölkənin mövqeləri qəflətən zəifləyib, amma onlar nə edəcəklərini bilmirlər. Əsas xalq kütləsi isə bunu görməyib, ona sırınan illüziyalarla - Ermənistanın Dağlıq Qarabağ problemi ilə təkbaşına bacaracağına inamla yaşayır və buna uyğun olaraq təzyiq və təhdidi gücləndirir. Onlar anlamırlar ki, hazırkı şəraitdə bu təhdidlərin arxasında real güc yoxdur və onların reallaşdırılması özüylə daha çox bəla gətirəcək" - politoloq qeyd edib.

**Ekspertə görə, bu cür əhval-ruhiyyə müəyyən mənada vəziyyəti anlayan elita üçün də sərfəlidir:** "Qeyri-müəyyənlik dövrü ona imkan verir ki, Bakıdan öncə Minsk Qrupunun iştirakçılarını təhdid edib, onlara Ermənistan tərəfindən Dağlıq Qarabağ məsələsində heç bir kompromisin olmayacağını göstərməyə çalışsınlar. Bu onların əllərində saxladıqları yaxşı kozırdır, amma onun reallaşmasına imkan verməyəcəklər. Ona görə də tanınmaqla bağlı qaldırılan məsələni İrəvan dəstəkləyəcək, amma onun tanınmasına imkan verməyəcək. Reallıqda isə əminəm ki, vəziyyəti başa düşən elita hədələyici görünüş sərgiləməklə, özünün daxildən və xaricdən Dağlıq Qarabağla bağlı mövqelərində yeni məhdudiyyətlərin formalaşması üçün gərgin məsləhətləşmələr aparır. İrəvan danışıqların yeni raunduna hazırlaşır. Mənim fikrimcə isə bu, bir aydan gec olmayaraq başlayacaq".

**Rusiyalı ekspertin fikrincə, Ermənistan, üstəlik, özünün daha bir problemi ilə necə davranacağını anlamalıdır.** "İrəvan getdikcə Ukraynaya bənzəyir və onun Kiyev kimi çətinlikləri yaranır. Xalqda Qarabağ məsələsində amansız və sərt mövqeyin formalaşmasında elitanın özünün də rolu olub, amma indi situasiya onu güzəştlərə getməyə məcbur etsə, xalq bunu qəbul etməyəcək və onun özünü devirəcək" - sonda politoloq əlavə edib.

***

Beləcə, Azərbaycan özünün apreldəki blits-hərbi zəfəri ilə işğalçı Ermənistanı əməllicə dilemma qarşısında qoyub. Məsələ də ondadır ki, separatçı qurumun tanınması avtomatik şəkildə müharibənin fitilinin çəkilməsi demək olacaq və buna görə hətta müttəfiqi Rusiya ondan üz döndərəcək, işğalçıya qarşı Azərbaycanın daha genişmiqyaslı hərbi əməliyyatlar aparması üçün münbit zəmin yaranacaq. Sərkisyanın elan elədiyi şərt-tələblərin baş tutmaması fonunda danışıqlar prosesinə qayıtmaq isə işğalçı tərəfin öz zəifliyinin etirafı və geri verməsi anlamlına gələcək. Üçüncü yol yoxdur.

YENİ MÜSAVAT
N 97 (6418) 5 may 2016



# Mətləb müəllimin hücum taktikası

**Samir SARI**

**Qarabağ müharibəsinə dair yazılara tez-tez belə şərhlər gəlir: "Basıb getmək lazımdır"; "Fürsət yaranmışkən torpaqları azad etmək gərəkdir"; "Heç kəsdən qorxmaq lazım deyil, hücuma keçməliyik" və sair və ilaxır.**

Bəzi qəzet və saytlarda ciddi-ciddi ziyalıların, politoloq və ekspertlərin də içində bu kimi çağırışlar olan açıqlamalarını tez-tez oxuyuruq.

Açığı, bilmirəm onlar nə dərəcədə ciddidirlər və fikirləri hansı dərəcədə faydalıdır, amma "basıb getmək" söhbəti yadıma kəndçimiz Mətləb müəllimin şahmat oynamağını salır.

Əzəl başdan qeyd edim ki, uzun illər öncə şahmat oynayanlar (15-20) hər gün kəndimizin parkında toplaşar, çay içə-içə oynayardılar. İçində hər peşədən adam vardı: şair, həkim, müəllim, mühəndis, sürücü, poçtalyon və b.

Mətləb müəllim də onlardan biri idi. Onun yaxşı domino oynamağı da vardı, amma şahmat oynamağı özgə aləmdi.

Mətləb müəllim riyaziyyatçıydı, savadlı adam idi, amma şahmatçılığının bir minusu vardı: həmişə hücumda oynayırdı. Elə ki, fiqurlar taxtaya düzülürdü, Mətləb müəllim ilk gedişi edərək rəqibinə deyirdi ki, Çivadze-zad deyiləm, müdafiədə oturam, basıb gedəcəm qabağa. Elə də edirdi. Özü də çox fikirləşməzdi, gedişləri tez-tez edir, fiqurları cəmləyib qabağa gedirdi. Bir də görürdük ki, müəllim "bakk" elədi, demək, fiqurunun birini əldən verib. Amma bu, onu basıb qabağa getməkdən saxlamırdı, ta piyada və fiqurlarının hamısını qırdırana qədər. Ondan sonra rəqibi Mətləb müəllimin şahını küncə qısnayıb mat edirdi. Müəllim yüngülcə konfuz keçirər, gülümsəyər və deyirdi: "Eybi yox, təzədən oynayaq, amma heç kəs qarışmasın".

Bir dəfə şahmat oynayarkən Mətləb müəllim elan etdi ki, istəsə, o da Yaşar müəllim kimi oynayar, hamını udar. Yaşar müəllim yaxşı şahmatçıydı, ehtiyatlı oynayar, heç vaxt hücum etməzdi, hövsələ ilə rəqibin səhvini gözləyərdi. O oynadığı 10 oyunun 9-nu udurdu. Mətləb müəllim gerçəkdən də həmin gün bir oyunu Yaşar müəllim kimi oynadı və uddu. Sonra yenə "basıb gedəcəm qabağa" taktikası seçdi və ... aydın məsələdir, necə oldu. Aydın demişkən, belə edəndə Mətləb müəllim hətta poçtalyonumuz Aydın kişiyə də uduzurdu. Daha dəqiqi, o biri şahmatsevərlər Aydın kişiyə düzgün gedişləri deyirdilər, o da ağına-bozuna baxmadan hücuma keçən müəllimin fiqur və piyadalarını bir-bir sıradan çıxarır, qalib gəlirdi.

Ona niyə belə oynadığını irad tutanda Mətləb müəllim deyirdi: "Oyundur da, müharibə-zad deyil ki. Əsas odur ki, kefiköklük olsun". Doğrudan da onun şahmat oynaması çox əyləncəliydi.

Amma müharibə əyləncəli peşə deyil. Onu Mətləb müəllimin taktikası ilə aparmaq olmaz.

Tarixdə belə edənlər olub. Məsələn, II dünya müharibəsində general Vlasov da eynən bizim Mətləb müəllim kimi topu-piyadanı cəmləyərək, basıb qabağa gedirmiş. Elə olurmuş ki, general bir diviziyanı qırdırıb gəlirmiş Stalinin üstünə. Stalin də Mətləb müəllim kimi deyirmiş, eybi yox, təzədən oynayarıq. Və Vlasova yeni bir diviziya verirmiş. Axırda Vlasov həmin yeni diviziyanı da götürüb keçib faşistlərin tərəfinə, ağsaqqalların sözü ilə desək, başlayıb o tərəfdən bəri vuruşmağa.

Deyilənə görə, möhtəşəm sərkərdə kimi tanınan Jukov da elə olub. Adam milyonlarla əsgəri labüd ölümə göndərib, Pirr qələbələri qazanıb, müasir tarixçilər də elə bilirlər ki, kişi dərin strateq, iti ağıllı analitik olub, qələbə üşün mürəkkəb planlar qurub. Xeyr. Sadəcə, o, SSRİ-nin bütün kənd-kəsəklərindən səfərbər olunmuş saysız-hesabsız əsgərlərə "basın gedin qabağa" əmri verirmiş, onlar da gedib ölürmüşlər. Belə anlaşılır ki, sadəcə, almanların sovet əsgərlərini qırıb-qurtarmağa gülləri, mərmiləri çatmayıb.

Ona görə də, açığı, müharibədən söz düşəndə eyzən "basıb getmək lazımdır" deyənlərə acığım tutur. Çünki hələ adi şahmat oyununda "basıb qabağa gedənlər" çox vaxt uduzursa, görün, real müharibədə nələr ola bilər. Ağıllı olmaq, hissə qapılmamaq, hərb elminin incəliklərini dərindən əxz edərək savaşmaq lazımdır.

# Eldar Sabiroğlunun oğlunun istintaq müddətini uzatdılar

## Rüfət Səfərovdan yeni açıqlamalar gəldi; sabiq müstəntiq radikal mövqeyindən çəkilmir

**Keçmiş müstəntiq Rüfət Səfərov dünən Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin İstintaq İdarəsinin mühüm işlər üzrə müstəntiqi Rəşad Bəşirov tərəfindən Binəqədi Rayon Məhkəməsinə dəvət edilib. Bu barədə R.Səfərov "Yeni Müsavat"a açıqlamasında bildirdi: "4 ay bitdi, yenidən ibtidai istintaqın müddətini uzadırlar. Mən baş prokuror Zakir Qaralovdan soruşuram: 4 ay müddətində hansı istintaq hərəkəti etdiniz? Hansılar qaldı ki, istintaqın müddəti uzadılsın? Deməli ki, bizi təzyiq altında saxlayıb, çəkindirmək istəyirsiniz? Olmayacaq!"**

R.Səfərov sosial şəbəkədə yazdığı statusda bu durumla bağlı daha ətraflı təhlil verib. Sabiq müstəntiq yazıb ki, barəsində seçilən ev dustaqlığı qətimkan tədbiri Binəqədi Rayon Məhkəməsinin qərarı ilə 09.08.2016-cı il tarixədək uzadılıb: "Qərardan bu və ya digər formada şikayət edib, vaxtımı hədər etməyəcəyəm. Eyni zamanda bununla əlaqədar qüvvədə olan qanunvericiliyin tələblərini xatırlatmağa da ehtiyac görmürəm, çünki əminəm ki, Azərbaycanda qanunlar deyil, qanunüstü sayılan ayrı-ayrı rəsmilərin iradəsi işləkdir. Odur ki, problemin faktiki tərəflərini qeyd etməyi zəruri bilirəm. Ayrı-ayrı kanallar vasitəsilə nəzərimə çatdırılır ki, əgər üzr istəyib, indiyədək ifadə etdiklərimin böhtan olduğunu bəyan etsəm, YAP-ın sıralarına qoşulub, "ağıllansam", bir an öncə işə xitam veriləcəkdir. Təklifi anlayışla qarşılamaqla bərabər, aşağıdakı 3 qeydi ifadə edirəm:

*__1.__ YAP-ın Azərbaycan tarixinə qara hərflərlə düşəcəyini yəqin bildiyimdən, sıralarına qoşulmağı məqbul saymıram;*

*__2.__ İndiyədək dürüst sanıb dediklərimizi bundan sonra da söyləyəcəyik;*

*__3.__ Haqq yolundan bir addım belə geri çəkilməyi düşünmürük.*



Rüfət Səfərov



Eldar Sabiroğlu

**R.Səfərovun atası, YAP-çı Eldar Sabiroğlu isə moderator.az saytına açıqlamasında deyib ki, oğlunun istintaq işinin yenidən 3 ay müddətinə uzadılması onda təəccüb doğurmayıb:** "Təxminən bu cür təsəvvür edirdim və bilirdim ki, məsələ asanlıqla öz həllini tapmayacaq. Ona görə də oğlum Rüfətlə bağlı prokurorluğun gəldiyi nəticəyə təbii baxıram. Prokurorluq sisteminin fəaliyyətində olan bu "peşəkarlıq" təkcə Rüfətin yox, çoxlarının üzərində sınanılmış təcrübə kimi tətbiq edilib. Bu səbəbdən onların qərarı istisna hal kimi diqqəti cəlb edə bilməz. Ancaq məsələnin başqa bir tərəfi də var ki, ondan yan keçmək mümkün deyil. Sual olunur ki, bu yoxlama testləri nə üçün aparılır? Hər şeydən əvvəl belə uzatmalarla təqsirləndirilən şəxsi asılı vəziyyətdə saxlamaq məqsədi güdülür ki, bu da bizim Baş Prokurorluqda ən "mütərrəqi" və "ədalətli" yol hesab olunur. İnanın ki, çox biabırçılıqdır, qanuna hayqırı olmaqla, mənəvi işgəncənin bir forması təsiri bağışlayır. Tamamilə qeyri-qanuni, əsası olmayan, öyrədilmiş adamları üzə dayandırmaqla belə kəskin qərar qəbul etmək Respublika Baş Prokurorluğunun özünə hörmət gətirmir. Bunu mənim oğlumdur deyə söyləmirəm. Adətən bir çox hallarda vəziyyətə, situasiyalara baxılaraq qərarlar qəbul edilir ki, bunun da hüquqla heç bir əlaqəsi yoxdur. Mən bunun açmasını vermirəm və üzərində dayanmağı da ona görə məqbul saymıram ki, onsuz da bir mənası yoxdur".

❑ **Sevinc TELMANQIZI**

# Türmədən məktub yazan qadına qarşı tərəfdən cavab

## "Ceyran Rüstəmovanın məktubda yazdıqları yalandır, o, cinayətkar dəstənin başçısı olub"



**Ötən saylarımızdan birində (26 aprel 2016) "MTN-in tutduğu qadın türmədən dəhşət dolu məktub yazdı" sərlövhəli yazı dərc olunub. Hazırda həbsdə olan Ceyran Mikayıl qızı Rüstəmovanın redaksiyamıza yolladığı məktuba əsasən hazırlanan yazıda C.Rüstəmova MTN-də başına gələnlərlə bağlı fikirlərini ictimaiyyətə çatdırırdı. Yazı dərc olunandan sonra redaksiyamıza C.Rüstəmovanın məktubunda adları hallanan şəxslər gəlib əks mövqelərini bildiriblər.**

Yasamal rayonu, X.Dadaşov küçəsi ev 40 "a" mənzil 1-də yaşayan Elşad Eyub oğlu Babayev, Səkinə Fərrux qızı Sadıxova, Emil Eyub oğlu Babayev, Bəxtiyar Lətif oğlu Məmmədov və qeyriləri bildiriblər ki, C.Rüstəmova və digər şəxslərin əməllərindən zərər çəkiblər.

**Onlar mövqeləri ifadə olunan məktubu da redaksiyamıza təqdim ediblər:** "Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində baxılan mütəşəkkil cinayətkar dəstənin başçısı Rüstəmova Ceyran Mikayıl qızı ilə həmin dəstənin digər üzvləri Hüseynova Reyhan Musa qızının Azərbaycan Respublikası CM-in 182.3.1., 182.3.2., 178.3.1., 178.3.2. və 29, 178.3.1., 29, 178.3.2-ci maddələri, Rəsulov Yaşar Bəxtiyar oğlu, Namazov Sakit Çapay oğlu, Gülməmmədova Mətanət İnqilab qızı və Rüstəmova Kəmalə Mikayıl qızının həmin Məcəllənin 178.3.1., 178.3.2., 29, 178.3.1., 29, 178.3.2-ci maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə on bir nəfər zərərçəkmiş var. Ceyran Rüstəmovanın məktubunda göstərdikləri yalandır və həqiqətə uyğun deyil. Bildiririk ki, həmin mütəşəkkil dəstənin başçısı Rüstəmova Ceyran Mikayıl qızı cinayətkar fəaliyyətinə 2010-cu ildən başlayıb. Belə ki, Rüstəmova Ceyran Mikayıl qızı və qeyriləri 3 avqust 2010-cu ildə Xaləddin Əli oğlu İbrahimova, 21 avqust 2010-cu ildə Sevda Mirqiyas qızı Namazovaya və 2011-ci ilin fevralında Şəriyə İsa qızı Yaqubovaya qarşı dələduzluq etməsi faktı ilə bağlı ilk dəfə 11 iyun 2012-ci ildə Bakı Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsinin müstəntiqi Ceyhun Tağıyev tərəfindən CM-in 320.1. maddəsi ilə 120200040 nömrəli cinayət işi başlanıb. Baş prokuror Zakir Qaralovun 26 noyabr 2012-ci il tarixli qərarı ilə istintaqın aparılması Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsinə həvalə edilib. Həmin mütəşəkkil dəstənin başçısı barəsində 120200040 nömrəli cinayət işinin başlandığı halda iş üzrə vaxtında məsuliyyətə cəlb olunmadığına görə o, azadlıqda qalıb. Nəticədə bir neçə il müddətində cinayətkar fəaliyyətini sərbəst davam etdirib, ağır cinayət hadisələrinin törədilməsinə birbaşa rəhbərlik edib. Belə ki, yuxarıda göstərilən 2010-2011-ci illərdə törətdikləri üç epizoddan başqa, həmin dəstənin başçısı Ceyran Rüstəmovanın rəhbərliyi ilə 2013-cü ildən 2014-cü ilədək olan müddətdə digər vətəndaşlara qarşı daha ağır on bir epizod cinayət hadisələrini *(hədə-qorxu ilə tələb etmə və dələduzluq)* törətdiklərinə görə barələrində 19 yanvar 2014-cü ildə CM-in 178-ci maddəsi ilə ikinci dəfə 140106016 nömrəli cinayət işi Suraxanı Rayon Prokurorluğu tərəfindən başlanıb".

**Məktubda qeyd olunur ki, hər iki cinayət işi baş prokurorun qərarı ilə 2014-cü ildə bir icraatda birləşdirilib və istintaqın aparılması Bakı Şəhər Prokurorluğunun İstintaq İdarəsinə həvalə edilib:** "Mütəşəkkil dəstə üzvlərinin cinayət əməlləri tam sübuta yetirildiyindən yuxarıda göstərilən maddələrlə onlara ittiham elan edilərək barələrində həbs-qətimkan tədbiri seçilmiş və istintaq tamamlanaraq cinayət işi ittiham aktı ilə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Belə olan halda C.Rüstəmovanın iddia etdiyi kimi hansı sifarişdən bəhs edilə bilər? Qeyd etmək istəyirik ki, həmin mütəşəkkil dəstənin başçısı yaranmış vəziyyətdən istifadə edib ictimaiyyətdə yanlış fikir yaranmasına nail olmağa çalışır. Bununla yanaşı, əsas niyyəti hansı yolla olursa-olsun cinayət məsuliyyətindən yayınmaqdır".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 97 (6418) 5 may 2016



# Ölkədəki hotellərin qiyməti - bahalığın pərdəarxası səbəbləri

## Yerli turizm obyektlərində, hotellərdə qiymətlər hansı həddədir?

**Ötən sayımızda Azərbaycan əhalisinin yaxınlaşmaqda olan yay aylarındakı istirahət planları, Türkiyə bəndinin bu planlar sırasından necə çıxması barədə yazmışdıq. Buna səbəb isə heç şübhəsiz ki, Türkiyədə bir-birinin ardınca baş verən terror aktları idi. Ehtimallardan biri yay aylarında ölkənin turizm bölgələrində də belə terror aktlarının baş tutacağı, bu səbəbdən də turistlərin bu xofla ordan aralı dayanmasıdır.**

Bu halda isə diqqət istər-istəməz daxili turizmə yönəlir. Daha təhlükəsiz, daha yaxın və üstəgəl, "xeyir vətənə qalsın" prinsipi. Bəs yerli turizm obyektlərində, hotellərdə qiymətlər hansı həddədir? Fins.az saytında bəzi hotellərin sutkalıq qiymətləri yer alıb. Həmin hotellərdən bəzilərini nəzərə çatdıraq. Qəbələdə yerləşən "Qafqaz Riverside Resort" hoteldə standart otaq - (2 nəfər üçün) -125 azn, junior suite (2 nəfər üçün) - 140 azn

Kotec 1+1 2 nəf. - 155 azn

Kotec 2+1 4 nəf. - 260 azn

Kotec 3+1 6 nəf. - 320 azn

Qəbələdəki "Qafqaz Tufandag Mountain Resort" Hotelində standart otaq - (2 nəfər üçün) -120 azn, junior suite (2 nəfər üçün) - 160 azn

Family suite (4 nəfər) - 210 azn məbləğindədir. Yuxarıda qeyd olunan otaq qiymətlərinə açıq bufet səhər yeməyi, internet, sağlamlıq mərkəzindən, kanat xəttindən istifadə daxildir.

Otaqda üçüncü şəxsin qalacağı təqdirdə (otaq və qəlyanaltı) 25 AZN ödənilmlidir.

Qubada yerləşən "Rixos Quba" hotelində isə Deluxe Standart Mountain View (2 nəf.) - 99 AZN-dir. Deluxe Standart Lake View ( 2 nəf.) - 119 azn, Junior Suite (2 nəf.) - 149 azn

Honeymoon Suite (2 nəf.) - 169 azn

Family Suite (4 nəf.) - 199 azn

Manna Villa (2 nəf.) - 199 azn

Midiya Villa (6 nəf.) - 599 azn

Urmiya Villa (8 nəf.) - 799 azn

Atropatena Villa (8 nəf.) - 849 azn

Yuxarıda qeyd edilən qiymətlər erkən rezervasiya şərtlərinə əsasən may ayının 15-nə kimi bron edilən və ödənilən rezervasiyalar üçün qüvvədədir.

**1 may tarixindən etibarən qüvvədə olan qiymət:**

Deluxe Standart Mountain View (2 nəf.) - 119 azn

Əlavə qonaqlar üçün ödəniş:

Körpə: 0 - 6 yaş - pulsuz

Uşaq: 6 - 12 yaş: - 20 AZN

3-cü böyük (12 yaş və daha böyük): - 30 Azn

"Samaxi Palace Sharadil" hotelində də durum fərqli deyil. Deluxe King/Twin

(bağa baxan, BB) - 99 AZN, Deluxe King/Twin

(bağa baxan, HB) - 148 azn



**Qaxda yerləşən "El" hoteldə 1 - 31 may tarixləri qüvvədə olan qiymətlər:**

Single otaq - 98 azn

Standart otaq - 108 azn

Junior suite - 138 azn

Family Suite - 166 azn

Sultan Suite - 216 azn

**01.06.2016-cı il tarixindən qüvvədə olan qiymətlər:**

Single otaq - 128 azn

Standart otaq - 138 azn

Junior suite - 158 azn

Family Suite - 196 azn

Sultan Suite - 256 azn

Gün ərzində üç dəfə qidalanmaq üçün (nahar və şam yeməyi üçün) ödəniş hər nəfər üçün bir günə 21 AZN-dir.

Standart, Junior Suite, Family Suite və Sultan Suite tipli otaqlarda əlavə hər bir qonaq üçün ödəniş 20 AZN-dir (yalnız səhər yeməyi daxildir).

Standart, Junior Suite, Family Suite və Sultan Suite tipli otaqlarda əlavə hər bir qonaq üçün ödəniş 40 AZN?dir (səhər yeməyi, lanç və nahar daxildir).

Hər bir otaq individual idarə olunan havalandırma və istilik sistemi, saç feni, minibar, peyk antenalı televiziya, seyf qutusu, çay və qəhvə dəstgahı, DVD pleyer, Ipod pleyer, beynəlxalq çıxışlı telefon xətti ilə təchiz olunmuşdur.

Gördüyünüz kimi, qiymətlər heç də əlçatan deyil. Rəsmi məlumatlara görə, ölkəmizdəki mehmanxana və bu tipli gecələmə yerlərindəki çarpayıların sayı 35 mindən çoxdur. Bu çarpayıların illik tutumu 13 milyona yaxın rəqəm edir. Amma Statistika Komitəsinin illik məlumatına nəzər salsaq, bu gecələmələrin sayının 10 dəfədən də az olduğunu görə bilərik. Belə mənzərə yaranır ki, Azərbaycanda hotel biznesi rentabelli deyil və bura investisiya qoyulmasına dəymir. Amma praktikada bunun əksinin şahidi oluruq. Məlum olduğu kimi, ölkə üzrə hər il 30-40 yeni otel istifadəyə verilir. Buradan belə nəticəyə gəlmək olur ki, hotellər nəinki qiymətləri şişirtməklə məşğuldur, eyni zamanda gəlirləri kütləvi surətdə gizlədirlər. Bunu isə vergi orqanları ilə razılaşdırılmadan həyata keçirmək mümkün deyil.

**"FLY Travel" turizm agentliyinin rəhbəri Mamed Əliyev deyir ki, yerli və xarici turistlər ölkədəki hotellərin bu qiymətlərindən narazıdır. Müsahibimizin sözlərinə görə, qısa müddət öncə Azərbaycana qazaxlar gəliblər və qalmaq üçün hotel axtaranda vəziyyətdən narazılıqlarını gizlətməyiblər:** "Bakının özündə də hotellər bahalıdır. Dəfələrlə olub ki, xarici turistlər sırf qiymətlərlə maraqlanandan sonra gəlməkdən vaz keçiblər. Çoxu da deyib ki, Azərbaycanda istirahət edəcəyimizə İstanbula, Antalyaya, Bodruma gedər, orda qalarıq. Bəzən bu hotellərin satış menecerləri ilə danışırıq. Onlar bu bahalığı hotellərin yeni tikilməsi ilə izah edirlər. Amma bu, səbəb ola bilməz. Çünki Antalyada da az qala hər il yeni hotellər tikilir, heç birində qiymət bu həddə olmur. İstanbulda 10-15 dollara dördulduzlu, gözəl hotellər var. Bizdə isə ən ucuz hotelin birgünlük qiyməti 50 AZN-dir".

**İqtisadçı ekspert Qadir İbrahimli isə bu bahalığı obyektlərin sayının azlığı ilə əlaqələndirdi. Dedi ki, hotel biznesi Azərbaycanda hələ də biznes növü kimi dinamik inkişaf etməyib:** "Təklif təklifə adekvat olmayanda yüksək qiymətlər ortaya çıxır. Məsələn, Nabranda 4-5 hotel və ya istirahət mərkəzi var, ancaq hər il Nabrana minlərlə adam dincəlməyə gəlir. Hotellərin sayı məhdud olduğundan qiymətlər baha qiymətə təklif edilir. Əgər hotel biznesi liberallaşsa, iş adamlarına bərabər imkanlar yaradılsa, onda hotellərin sayı da artar, qiymətlər də enər".

❑ **Sevinc TELMANQIZI**



# Xətai sakini "Azərsu"dan şikayətçidir

**Anar Cəbrayıllı:** "Cərimə ödənməsə, onun smart kartını blokdan çıxarmayacağıq"

**"Xətai rayonunda ət dükanımın suyunu "Azərsu ASC" bloklayıb. Səbəb isə özümün də xəbərim olmadan neçə illər əvvəl həyətdəki bulağın suyundan istifadə etdiyim üçün yazılan 1200 manatlıq cərimədir. Halbuki bu cərimə mənə haqsız yerə kəsilib". Bu sözləri Bakı şəhər Xətai rayon sakini Kərəm Dünyamalıyev redaksiyamızda şikayətini dilə gətirərkən deyib.**

O, yaşlı anası Qiyafət Ağayevanın adına olan ət dükanının hazırda işlək vəziyyətdə olmadığını bildirdi: "1988-ci ildə Sisiyan rayonundan qaçqın gəlib Kürdəxanıda məskunlaşmışıq. Qardaşımın ikisi şəhid olub. 1994-cü ildə sabiq prezident Heydər Əliyev şəhid ailəsi olduğumuz üçün bizə Xətai rayonunda 15 kvadratlıq yer verdi ki, fəaliyyət göstərək. 1994-cü ildən bu günə kimi həmin yerdə ət dükanı kimi fəaliyyət göstərmişik. Biz heyvanı qıraq yerdə kəsib burada satırıq. 1994-cü ildən 2012-ci ilədək məhlədə olan sudan istifadə etmişik. Bütün məhəllələrdə bulaq olur ki, binaya su gəlməyəndə camaat həyətdəki həmin bulaqdan su daşısın. Bu bulaqla da bizim dükanın arasında 10 metr məsafə var. Buna görə də biz ət dükanına su çəkdirmədik və oradakı bulaqdan su daşıyırdıq.

2012-ci ilin oktyabr ayında "Azərsu" işçiləri gəlib baxıblar ki, blokun qabağında bulaq var və bir az aralıda da ət dükanı. Ət dükanına akt yazıb heç kimə də demədən çıxıb gediblər. Mən noyabrın 1-də "Azərsu"ya müraciət etmişəm. Gətirib dükanıma smart tipli su sayğacı qoyublar. 3 il müddətində hər ay 300 manata kimi pul ödəmişəm. Əgər mənim cərimən olubsa, "Azərsu"nun ixtiyarı yoxdur ki, mənə smart tipli sayğac qoysun. 3 ildir biz bu sudan istifadə etmişik. İndi isə bizim dükanın suyunu blok ediblər ki, cəriməni ödə. Biz də ödəmirik. 1994-cü ildən 2012-ci ilə qədər harada idilər ki, bu cəriməni görmürdülər. Cərimə 2012-ci ildə yazılıb. 2012-ci ildə cərimə vardısa, bizə niyə smart tipli sayğac qoyurdular? Ağayeva Qiyafətin adına kompüterdə vuranda heç bir cərimə çıxmır. Dükan anamın adınadır. Anam yaşlı olduğu üçün mən şikayətə gəlmişəm. Prezidentə şikayət məktubu yazmışıq. Məktub "Azərsu"ya göndərilir. Orada da baxılmır".

Şikayətçi 2012-ci ilin iyunundan blok edilən suyunun blokdan çıxarılmasını və haqsız saydığı cərimənin silinməsini tələb edir.

**Məsələ ilə bağlı "Azərsu"nun də rəyini aldıq. "Azərsu" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Cəbrayıllı şəxsə yazılan cərimənin qanuni olduğunu dedi:** "Bu şəxs sudan qeyri-qanuni istifadə etdiyinə görə cərimələnib. Nazirlər Kabinetinin qərarı var. Həmin şəxs bulaqdan qeyri-qanuni xətt çəkib. Biz də buna görə dəymiş ziyan cədvəli hesablamışıq. Cərimə ödənməsə, biz onun smart kartını blokdan çıxartmayacağıq. Çünki bizim ona başqa təsir gücümüz yoxdur. Əgər bizə etirazı varsa, buyurub məhkəməyə versin. Məhkəmə qərar çıxarsa ki, biz səhv eləmişik, həmin kartı blokdan götürərik. Cərimə qanunidir".

❑ **Günel MANAFLI**

# Bakı rusiyalı turistlərin ən çox ziyarət etdiyi 10 şəhər arasındadır



**Rus turistlərin cari ilin may ayının əvvəlində ən çox səyahət etdiyi şəhərlərin reytinqi açıqlanıb. "APA-Economics" travel.ru saytına istinadən xəbər verir ki, reytinq 30 aprel - 4 may tarixlərində hotel və hostellərdə bronlaşdırmaya əsaslanıb.**

Sayt yazır ki, rus turistlər Bakıda 1 sutka ərzində orta hesabla 3 min rubl və ya 68 manat xərcləyiblər.

Müqayisə üçün qeyd edək ki, qonşu ölkənin turistləri 1 sutka ərzində Belarus və Polşada 2 min rubl və ya 45 manat, Sinqapur və Londonda isə 10 min rubl və ya 227 manat xərcə düşüblər.

Ümumiyyətlə, rus turistlərin qeyd edilən vaxt kəsiyində ən çox axın etdiyi şəhərlərin ilk onluğu bu cürdür: Minsk, Riqa, Praqa, Tallin, Bakı, Vilnüs, Tbilisi, Roma, Helsinki və Belqrad.

**Elə insan olmaz ki, o böyük ticarət mərkəzində alış-veriş etməyi sevməsin. Psixoloqların fikrinə görə, alış-veriş edən insanlar stressdən uzaq olur. Geyim, qida, aksesuar, uşaq oyuncaqları, kitab mağazalarının tək bir nöqtədə birləşməsi buranı insanlar üçün daha da cəlbedici edir. Azərbaycanda da bir-birinin ardınca geniş və dünya markalarının əksəriyyətini bir-birində birləşdirən "28 MALL", "Gənclik Mall", "MetroPark", "Park Bulvar", "Port Baku Mall" və digər ticarət mərkəzləri açıldı. Bu ticarət mərkəzləri bir-birindən qiymət, brend və əyləncə vasitələrinə görə dəyişir. Əsas fərqlərin nələr olduğunu görmək üçün yolumuzu bir neçə ticarət mərkəzindən saldıq.**

# Paytaxt "Mall"-ları: alış-veriş, yemək və əyləncə mərkəzləri

## Bakının iri ticarət mərkəzlərindən reportaj






İlk olaraq insanların daha çox üz tutduğu "28 Mall"a getdik. Buradakı geyim mağazalarının bəzilərində 20-40 faizədək endirim kampaniyaları həyata keçirilirdi. Geyimlərin qiymətləri də münasib idi desək yanılmarıq. Ancaq təbii ki, burada da bütün ticarət mərkəzlərində olduğu kimi brenddən brendə qiymət fərqi vardı. Svarovskidən olan aksesuarların gözəlliyi insanın gözünü qamaşdırsa da, qiyməti bahadır. Ən ucuz Svarovski aksesuarın qiyməti 140 manatdır.

Ərzaq məhsullarının qiymətinin bahalaşması "28 Mall"ın nəzdində fəaliyyət göstərən "Bazarstory"dən də yan keçməyib. Məişət əşyaları və texnikası satılan "Music Galery"də müəyyən endirim kampaniyaları vardı. Belə ki, əgər hansısa məişət texnikasını nağd alana real qiymətdə endirim edirdilər. Alış-verişin insanı hər zaman acırdığını nəzərə alıb sonuncu mərtəbəyə-yemək bölməsinə daxil oluruq. Burada türk mətbəxi, fast foodlar bir-birinin ardınca düzülmüşdü. Daha çox "McDonalds" və KFC-nin qarşısında insan növbəsi müşahidə etdik. Səbəb digər yerlərə nisbətən qiymətlərin burada münasib olması idi. "Kalinka", "Cinnabo"nun qarşısından keçəndə sanki 8-ci kilometr bazarından keçirsən. Satıcıların "endirimdir, 1 alana 1-i hədiyyə, gəlin bizdən alın" qışqıraraq müştəri səsləmələri o qədər də xoş təəssürat yaratmırdı.

Endirimlər edib müştəri səsləyən fast foodlardan birinə - "Kalinka"ya yaxınlaşdıq. Müxtəlif çeşidli salatların qiyməti 1 manat 50 qəpik və 2 manat 50 qəpik arasında idi. Amma bu qiymət əvvəllər 1 kiçik boşqab salata aid edilirdisə, indi salatın 100 qramına aid edilir. Bir tikə toyuq kababı 6 manat, yanında kartof və soğanı hədiyyə. Nəzərə alsaq ki, insanlar buraya tək getmirlər, o zaman iki nəfərlik kabab hesablaması yanında aciko artırmaqla 20 manata başa gələcək.

"28 Mall"dan çıxıb yolumuzu yenicə fəaliyyətə başlayan "Gənclik Mall"dan saldıq. Bura yeni açıldığı üçün əksər mağazalar hələ tam fəaliyyətə başlamamışdı. Ancaq digər ticarət mərkəzlərindən buranı fərqləndirən genişliyi idi. Təhlükəsizlik tədbirləri isə hələ ki arzuolunan səviyyədə deyildi. Ərzaqların çox ucuz olduğu deyilən "Bravo"ya da baş çəkdik. "Bravo"da bəzi ərzaq məhsulları ucuz olsa da bəziləri, məsələn, şirniyyatlar baha idi. Kiçik qablamada olan 3 ədəd paxlava 3 manat 2 qəpiyə satılırdı. Tortların bir dilimi 2 manat 60 qəpiyə, konfetlər isə 8-90 manat arasında dəyişirdi. "Gənclik Mall"dakı bir problem ticarət mərkəzinin qarşısında dayanan taksilərdir. Bu taksilərə görə ticarət mərkəzinə daxil olmaqda belə insan çətinlik çəkir. "Gənclik Mall" ticarət mərkəzində 1000 avtomobillik parklama yeri olmasına baxmayaraq, bəzi sürücülər, eləcə də sərnişindaşıma ilə məşğul olan şəxslər, ticarət mərkəzinin yanında avtobuslar üçün nəzərdə tutulan "cibliyə" daxil olub, maşını saxlayırlar. Nəticədə avtobuslar Fətəli xan Xoyski küçəsinin ikinci, hətta üçüncü zolağında dayanmağa məcbur olur, bu səbəbdən sərnişinlər avtobuslara minmək üçün yolun ortasına çıxırlar.

Bakının ən bahalı ticarət mərkəzi sayılan "Port Baku Mall" isə 3 mərtəbədən ibarətdir və ümumi sahəsi 32.000 kv.m. təşkil edir. Bundan başqa, ticarət mərkəzinin 1500 avtomobil üçün dayanacaq yeri var. Mərkəzin birinci və ikinci mərtəbələrində geyim mağazaları, üçüncü mərtəbəsində isə uşaq geyim mağazaları ilə yanaşı iaşə obyektləri yerləşir. "Port Baku Mall"ın daxilində olan mağazalar sırasında - "Ralph Lauren", "Giorgio Armani", "Valentino", "Alexander McQueen", "Burberry", "Givenchy", "Dsquared2", "Chloe", "Banana Republic" və sair kimi məşhur brendlər var.

Daha sonra yolumuzu "Metropark"dan saldıq. Burada təhlükəsizlik tədbirləri daha güclü idi. Belə ki, yoxlama aparatının içindən keçdikdən sonra ticarət mərkəzinə daxil ola bilirsiniz. Digər ticarət mərkəzlərinin heç birində biz bu aparatı görmədik. Digər ticarət mərkəzlərindən fərqli olaraq "Metropark"da uşaqların əylənməsi üçün xüsusi mərtəbə nəzərdə tutulub. Burada 2 manatlıq kart alıb balans yükləməklə uşaqlarınızı əyləndirə bilərsiniz. Həmçinin uşaqların ad günlərini, özəl günlərini keçirmək üçün kafelər də nəzərdə tutulub. Ancaq bu yerlərdə tək-tək uşaqlar gözə dəyirdi. Yemək bölməsində isə qiymətlər digər ticarət mərkəzləri ilə demək olar ki, eyni idi.

Qeyd edək ki, Azərbaycandan fərqli olaraq digər ölkələrin ticarət mərkəzlərində insanların dincəlmələri üçün də şərait yaradılıb. Məsələn, Türkiyənin paytaxtında yerləşən "Nata Vega" ticarət mərkəzinin alt qatında böyük akvarium fəaliyyət göstərir. Alış-veriş edib yorulan insanlar əlavə pul ödəməklə bu qata enib özlərini bir anlıq dənizin dibində, balıqların əhatəsində hiss edə bilərlər.

❑ **Günel MANAFLI**
❑ **Fotolar müəllifindir**

# Bakının "Şanxay"ında problemlər bitmir

**"Kiməsə qatar xəsarət yetirirsə, demək, həmin adam təzə gələndir"; "Azərbaycan Dəmir Yolları"nın rəsmisi: "Orada hər dəqiqə hadisə baş verə bilər"**







**Bir zamanlar sökülməsi nəzərdə tutulan, Bakının "Şanxay" kimi tanınan məhəlləsində hazırda yeni evlər tikilir. "Şanxay"ın köçürülməsi planı isə artıq gündəmdən tamamilə düşüb. Bu barədə ərazidə olduğumuz zaman oranın sakinlərindən məlumat aldıq.**

Sakinlər musavat.com-a bildirdilər ki, artıq sökülməsi nəzərdə tutulan evlərin hasarlarına yazılan xüsusi rəqəmlərin də rəngi gedib. **"Şanxay" sakini Mənsur Kərimovun** sözlərinə görə, məhəllənin köçürülməsi gündəmdə olduğu zaman bütün evlər nömrələnibmiş: "Hər evin hasarına xüsusi nömrə yazmışdılar. Deyirdilər ki, çox yaxın zamanda sökəcəyik. Ümumiyyətlə, həmin zamanlarda burada sakinlərin bir qismi evlərinin sökülməsini istəsələr də, digər bir qismi bununla razı deyildi. Söksəydilər, narazı təbəqə yaqin ki, etiraz edəcəkdi. Özümdən götürürəm ki, burada 1967-ci ildən məskunlaşmışıq. Evimiz böyükdür. Üç qardaş həmin evdə rahat şəkildə yaşaya bilirik. İndi evi söksələr, başqa yerdə mənzil versələr, 3 ailə orada yaşaya biləcəkmi? Bax, bu cür məsələlərə görə məhəllənin köçürülməsinin tərəfdarı deyilik. Kvadrata görə ev versələr, o başqa məsələ. Ancaq pul yox, köçürülmə nəzərdə tutulurdu".

**Sakinin dediyinə görə, artıq məhəlləni nəinki sökmürlər, hətta aşağı və yuxarı tərəflərində yeni evlər tikilir:** "Burada əvvəl 300 ev vardı. İndi isə 1000-dən yuxarıdır. Hazırda da buradan torpaq alıb, ev tikənlər var".

Öyrəndik ki, məhəllə salınan zaman burada əsasən zabitlər yaşayıblar. Məhəlləyə yaxın ərazidə iki həbsxana olduğu üçün burada ən çox polis zabitləri olublar. Sonradan isə Bakıya bölgələrdən gələnlər, digər yerlərdə olduğu kimi "Şanxay" ərazisində də məskunlaşmağa başlayıblar. Buranın "Şanxay" adlandırılmasına səbəb isə Çinin "Şanxay" vilayətində olduğu kimi məhəllənin içərisindən qatarın keçməsidir.

**Lakin sakinlərin bununla bağlı qorxusu yoxdur. Onların sözlərinə görə, artıq 8 ildən çoxdur ki, məhəllənin içərisindən keçən qatar heç kimə xəsarət yetirməyib. Kazım adlı məhəllə sakini bildirdi ki, artıq sözün həqiqi mənasında, qatarın qabağından qaçmağı bacarırlar:** "Kiməsə qatar xəsarət yetirirsə, demək, həmin adam bura yeni gələndir. Köhnə camaat qatar gələndə necə kənara çəkilmək lazım olduğunu bilir. Ona görə də 8 ildən çoxdur ki, burada hər hansı qəza halı yaşanmır".

**Sakinlərlə söhbət zamanı bəlli oldu ki, məhəllədə hazırda əsas problem qatar xəttinin yaxınlığından axıdılan çirkab sularıdır:** "10 ildən çoxdur ki, bu vəziyyətdir. Pis qoxu əlindən burada dayanmalı deyil. Bir tərəf çirkab sudur, digər tərəf isə zibilxana. Ona görə də ərazi başdan-ayağa xəstəlik mənbəyidir. Burada əslində kanalizasiya xətti var idi. Dəmir yolu idarəsinin əməkdaşları təxminən 10 il öncə həmin xətti təmir etmək adı ilə dağıtdılar və hazırkı vəziyyət yarandı".

Axıdılan çirkab sular qatarın relslərinin arasına da dolur. Eyni zamanda sakinlər bu ərazidən həm də zibilxana kimi istifadə edirlər.

**Səslənən iradlarla bağlı "Azərbaycan Dəmir Yolları" QSC-nin mətbuat xidmətinin rəhbəri Nadir Əzməmmədovla əlaqə saxladıq. N. Əzməmmədov bildirdi ki, əslində vəziyyət başqadır:** "Əslində biz deyirik ki, sakinlər çirkab suları dəmir yolu xəttinin üzərinə axıtmasınlar. Bundan başqa, zir-zibilləri ramaların üzərinə qoyurlar. Bu da bizim üçün ciddi problemlər yaradır. Çünki həmin qatarlar beynəlxalq istiqamətdə hərəkət edir və təmizlənməlidirlər. Ora bizim üçün problemli yerdir. Həmin hissədə qatarların hərəkət sürətinə məhdudiyyətlər qoyuruq ki, yavaş getsinlər. Çünki hər dəqiqə orada bir hadisə baş verə bilər. Ərazidə sakinlərlə də söhbətlər aparmışıq. Dəfələrlə informasiya veririk ki, burada hər hansı bir hadisə baş verərsə, nə bərpa qatarı, nə də yanğınsöndürən ora girə bilməyəcək. Bununla bağlı müvafiq qurumlara da məktublar ünvanlayıb bildiririk ki, əlavə tikililərə icazə verməsinlər".

❑ **Əli RAİS**
❑ **Fotolar müəllifindir.**

YENİ MÜSAVAT

Son səhifə

N 97 (6418) 5 may 2016

# Həyatı boyu ancaq çörək, süd və kartof yeyir

ABŞ-ın Nyu-York şəhərində yaşayan 1 uşaq anası, 54 yaşlı Marla Lopez həyatı boyu cəmi üç növ qida yeyib. Bunlar çörək, süd və kartof qızartması olub. "Good Morning America" adlı verilişdə qonaq kimi iştirak edən Lopez deyib ki, həyatı boyu heç meyvə və tərəvəz yeməyib. Ancaq bu 3 qida növündən istifadə edən qadının deyib ki, bu, qidalanma pozğunluğundan yaranan haldır və uşaqlıqdan bəri onda bu hal mövcuddur. Bəzən qadın "çaşıb" keks və ya peçenye yeyir. Amma onun favorit yeməyi yenə də kartof qızartmasıdır. Səhhətində heç bir problem olmayan qadının bu qidalanma növünü isə mütəxəssislər doğru hesab etmir.




## Ev işləri qadını belə arıqladır



İsveçrəli alimlər müəyyənləşdiriblər ki, evdar qadınların arıqlaması işgüzar qadınlara nisbətən daha asandır. Belə ki, bəzi ev işləri insanın daha çox kalori yandırmasına səbəb olur. 30 dəqiqəlik ev işlərinə qarşılıq olaraq yandırılan kalorinin miqdarı aşağıdakı kimidir:

Toz almaq, yüksəkdə olan rəfləri təmizləmək - 50 kalori

Paltar ütüləmək, yataq hazırlamaq - 70 kalori

Yemək hazırlamaq - 80 kalori

Yerləri süpürmək və ya silmək - 90 kalori

Qab yumaq, otağı yığışdırmaq - 100 kalori

Pəncərələri silmək, maşın yumaq - 150 kalori

Hamamı təmizləmək, torba daşımaq - 200 kalori

Nərdivanları çıxmaq, evi boyamaq - 250 kalori

## Masajın yeni növü - özlərini dişlədirlər

Amerikada son dönəmdə yeni bir dəb var - dişləyərək masaj etmək. Nyu-Cersi ştatında yaşayan Dorothy Stein dişləyərək etdiyi masajla təkcə öz ölkəsində yox, dünyada da diqqət çəkir. Jurnalistlər bu masaj növünü sınaqdan keçirmək üçün onun qapısını döyüblər və məlum olub ki, klassik masajdan fərqli olaraq, bu masaj növü insan bədəninə daha çox fayda verir. Masajçı dünyanın bütün ölkələrində filial açdırıb və hazırda Hollivudun məşhur simaları da özlərini "dişlətmək" üçün onun yanına gəlirlər. Masajçının yanında 1000-ə yaxın insan çalışır və onlar da ən azı D.Stein qədər populyardırlar. "Dişli masaj" həvəskarları arasında StinqŞ Eminem, Jastin Timberlake, Brus Vills kimi məşhur adlar da var.

# Ali Məhkəmədə qadınların saç düzümü barədə qərar

Danimarkanın Ali Məhkəməsində ilginc məhkəmə prosesi baş verib. Belə ki, iddiaya qadın saç düzümlərinin kişilərinkinə nisbətən daha baha olması səbəb olub. "The Copenhagen Post"un xəbərinə görə, məhkəmə qərar verib ki, əslində bu iki saç düzümü texniki baxımdan bir-birindən fərqlidir, qadınların saçı kişilərə nisbətən daha çətin başa gəlir, əziyyət tələb edir. Ona görə də hər iki saç düzümünün tarifi arasında fərq təhqiramiz və ədalətsiz görünə bilməz. Halbuki bundan əvvəl qadın müştərilər tərəfindən bu məsələ ciddi narazılıq yaratmış və cinsi ayrı-seçkiliyin təzahürlərindən biri kimi qiymətləndirilmişdi. Amma məhkəmə araşdırması zamanı Gender Bərabərliyi İnstitutu və Danimarka İndividual Saç Ustaları Dərnəyi ekspertlərindən də rəy alınıb. Hər iki qurumdan verilən ekspert rəyində qeyd olunub ki, sözügedən tarif fərqi heç də qadınları təhqir etmir, əksinə, onlarla bağlı xidmətin daha həssas və estetik olduğunu sübut edir.



## 10 yaşlı uşaq İnstaqramda 10 min dollar qazandı




10 yaşlı finlandiyalı məktəbli Yani "Facebook"un şeflərini şoka salıb. Məktəbli "İnstagram"ın səhifəsində buradakı şərhləri silməyə imkan verən sistem səhvi tapıb. "İnstagram"ın sahibi olan "Facebook" ona bu tapıntısına görə 10 000 dollar ödəyib. Nəticədə Yani "Facebook"un indiyədək pul ödədiyi ən gənc insan olub.

Proqramın fəaliyyətdə olduğu 5 ildə ərzində sistem səhvlərinin aşkarlanmasına görə "Facebook" 800 "haker"ə ümumilikdə 4,3 milyon dollar ödəyib. Qeyd olunur ki, Yani "İnstagram"ın yaş həddi şərtini pozmuşdu.

Belə ki, qaydalara görə, yalnız 13 yaşından yuxarı şəxslər bu sosial şəbəkədən istifadə edə bilər. Tapdığı boşluğun köməyi ilə istənilən hesabdakı istənilən mesajı silə bilən Yani "Hər kəsi silə bilərdim. Hətta Justin Bieberi belə," deyə açıqlamasında bildirib.

## Qoroskop




**QOÇ** - Ulduzlar günün ilk yarısını neytal şəkildə başa vurmağı tövsiyə edir. Hər hansı riskə getmək yolverilməzdir. Təxminən saat 14-dən etibarən iş həyatınızda dönüş gözlənilir. Fürsəti fövtə verməyin.

**BUĞA** - Yaxşı olar ki, bu gün bir qədər özünüzə hesabat verəsiniz. Çünki bu vaxta qədər keçdiyiniz yanlış və doğrulardan nəticə çıxarmağınız sizə stimul verəcək. İstənilən günahdan çəkinin.

**ƏKİZLƏR** - Bu il ilk dəfədir ki, bürcünüzdə heç bir mənfi yüklü planet yoxdur. Deməli, taktikanız doğru olarsa, yalnız müsbət olaylaların iştirakçısı olacaqsınız. Özünüzü güclü hiss edin, xeyirxah olun.

**XƏRÇƏNG** - Ümumi mənzərə qənaətbəxş olduğundan sizə yalnız doğru seçim etmək qalır. Əgər bu gün pulla bağlı planlarınız varsa, saat 14-ə qədər həll edin. İşdən başınız açılsa, səfərə çıxa bilərsiniz.

**ŞİR** - Həyatınızda, yaxın ətrafınızda lazımsız adamlar az deyil. Özünüzə güc tapıb onların bəzisindən uzaqlaşın. Çünki bu ayın perspektivləri üçün sizə etibarlı adamlar lazım olacaq. Yuxunuza fikir verin.

**QIZ** - Bu gün əsl siyasətçi xarizması nümayiş etdirin. Hər bir informasiya və situasiyadan dəqiq nəticə çıxarmaq üçün ölçüb-biçin. Hər ifadənizə diqqət yetirin. Nahardan sonra pul problemlərini çözün.

**TƏRƏZİ** - Bütün astroloji göstəricilər doğma və yaxınlarınızla daha mülayim davranmağı məsləhət görür. Gücünüzə güc qatmaq üçün bu, çox vacibdir. Bunu bacarsanız, taleyinizin qızıl dövrü başlayacaq.

**ƏQRƏB** - Bürcünüzün xarakterindən irəli gələn son sözü əvvəldə demək, qədərindən artıq təvazökarlıq sizə problem yarada bilər. Bu səbəbdən hər kəslə mülayim davranın. Səfər isə uğurlu deyil.

**OXATAN** - Maliyyə bxımından uğurlu gün olsa da, münasibətlər müstəvisində diqqətli olmağınız vacibdir. Köhnə palan içi tökməkdənsə perspektivli layihələr üzərində baş sındırmaq daha yaxşı olar.

**OĞLAQ** - Nahara qədər hər hansı qeyri-ənənəvi addım atmağınız xoşagəlməzliklə nəticələnə bilər. Neytrallığınızı qorumağa çalışın. Sonrakı saatlarda nüfuzlu və ya vəzifəli insanlarla səmərəli görüşləriniz gözlənilir.

**SUTÖKƏN** - İlıq Baharın sizə verdiyi müsbət enerjidən lazımınca yararlanın. Gücünüzü artırmaq üçün fəaliyyətə azacıq fasilə verin. Beyninizdəki arzuları götür-qoy etmək üçün bundan yaxşı gün olmayacaq.

**BALIQLAR** - Kənardan sizə qarşı hər hansı neqativ və ya müsbət təsir olmayacaq. Necə deyərlər, nə əkəcəksinizsə, onu da biçəcəksiniz. İxtiyar sahibi olduğunuz üçün çalışın ki, yalnışlığa yol verməyəsiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Polis pişiyi tərəf müqabili seçdi



Cənubi Karolina ştatında polis özünə maraqlı bir tərəf müqabili seçib. Bu, evsiz pişikdir. Lenta.ru saytının xəbərinə görə, 28 yaşlı polis Kodi Qarrett zibil yeşiyində miyoldayan bir pişik görərək onu çıxarıb. Daha sonra isə onu evində saxlamağa qərar verib. Xəbərdə qeyd olunur ki, Qarrett pişiyi "cinayətkarlığa qarşı mübarizədə tərəf müqabili" elan edib. Polisin evində bundan başqa, 4 balası olan bir pişik də yaşayır.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750